İnternet azadlığı: Azərbaycan qanunvericiliyi və praktikası

Noyabr 2022-ci il

Giriş

Bu araşdırmada spesifik olaraq Azərbaycanda internet azadlıqlarının üç əsas sahəsi, (i) internetə çıxış, (ii) internetdə məzmunu tənzimləyən milli qanunvericiliyin beynəlxalq insan hüquqları standartları ilə müqayisəli təhlili və (iii) internetdə ifadə azadlığı və media azadlığının vəziyyətinə dair milli qanunvericilik və praktika nəzərdən keçirilir.

Araşdırmanın birinci fəsli "internetə çıxış: infrastruktur və milli hüquqi çərçivələr" adlanır. Bu fəsildə internetə çıxışın insan hüquqları və azadlıqlarının həyata keçirilməsindəki mühüm rolu, həmçinin bəzi yurisdiksiyalarda, habelə bağlayıcı olmayan (soft law) beynəlxalq sənədlərdə internetə çıxışın insan hüquqları olduğuna dair getdikcə möhkəmlənən baxışdan bəhs edilir. İnternetə çıxışa dair möhkəmlənən insan hüquqları yanaşmasından bəhs edilərkən Azərbaycanda insanların internetə çıxışda üzləşdikləri hüquqi, texniki və siyasi maneələr və onların yaratdığı nəticələri ətraflı təhlil edilir. Araşdırmanın bu fəsli internetə çıxışın qismən və tamamən bağlanmasının (dayandırılmasının) milli qanunvericilik əsaslarının beynəlxalq insan hüquqları normaları və standartları ilə müqayisəli təhlilini də əhatə edir.

"İnternetdə məzmunu tənzimləyən milli qanunvericilik və beynəlxalq standartlara uyğunluq" adlı ikinci fəsildə Azərbaycanda informasiyanın məzmunun onlayn mühitdə milli hüquqi tənzimləməsinin müvafiq beynəlxalq hüquqi standartlarla müqayisəli şəkildə əhatəli təsviri verilir. Burada müvafiq milli hüquqi çərçivələrin beynəlxalq standartlarla uzlaşmadığı vurğulanır. Bu uyğunsuzluq hallarının yerli qanunvericilikdə qeyri müəyyən şəkildə ifadə edilən bir sıra anlayışların beynəlxalq insan hüquqlarında təsbit edilmiş *keyfiyyətli qanun* standartına cavab verməməsində özünü göstərdiyi qeyd olunur.

Araşdırmanın "İnternetdə ifadə və media azadlığının vəziyyəti" adlı üçüncü fəslində isə Azərbaycanda internet məkanına nəzarəti və tənzimləməni təmin edən normativ hüquqi aktlarının daha çox tətbiqi nəticəsində yaranmış vəziyyətə diqqət çəkilir. Bu fəsildə, əsasən, qanunvericilikdə mövcud olan məhdudlaşdırıcı və sui-istifadəyə açıq olan normaların tətbiqinin internetdə ifadə azadlığı və media azadlığı ilə bağlı beynəlxalq standartlara uyğunsuzluğu nəzərdən keçirilir. Qanunların tətbiqi ilə bağlı vəziyyət nəzərdən keçirilərkən Azərbaycanda internetdə ifadə azadlığının bir çox aspektləri, o cümlədən diffamasiyaya görə cinayət məsuliyyətinin qalması və onun cari tətbiqi təcrübəsi, prokurorluq və məhkəmələr tərəfindən "informasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" haqqında qanunun tənqidçi fəallara qarşı problematik tətbiqinə (istifadəsinə) nəzər yetirilir.

Bu araşdırma ilə bağlı tədqiqatlar müvafiq mövzulara dair milli qanunvericiliyin beynəlxalq insan hüquqları sənədləri ilə müqayisəli tədqiqini, milli qanunvericiliyin tətbiqi ilə bağlı əlaqəli yerli və beynəlxalq hesabatların, məhkəmə qərarlarının və mediada yayımlanan məlumatların toplanılması və nəzərdən keçirilməsini əhatə edən bir neçə mərhələdə aparılıb.

Araşdırma Müstəqil Hüquqşünaslar Şəbəkəsi tərəfindən hazırlanıb.

Xülasə

Yerli və beynəlxalq hesabatlar göstərir ki, Azərbaycanda dövlətin internet azadlıqlarını məhdudlaşdıran qanunvericilik və siyasət tədbirləri gedərək genişlənib. Belə ki, dövlət məhdudlaşdırıcı qanunvericiliyi yetərli görmədikdə, inzibati və cinayət qanunvericiliyindən sui-istifadə edərək internetdə tənqidçi fəallara, siyasətçilərə və jurnalistlərə qarşı qurama inzibati və cinayət ittihamlar irəli sürməklə, həmçinin müxtəlif casus kommunikasiya və proqram texnologiyalarını[1] onlara qarşı istifadə[2] etməklə ölkədə internet azadlıqlarını son onillikdə daha da pisləşdirib.

Dövlət interneti *məhdudlaşdırmaq* üçün ifadə azadlığı və medianın fəaliyyətini tənzimləyən qanunlara istinad edərək internetdə yayılan informasiyaya qarşı legitimliyi mübahisəli senzura, filterləmə, bloklama tətbiq edir. Eləcə də, qanuna uyğunluğu mübahisəli inzibati təsir mexanizmlərindən faydalanaraq ictimai etirazların olduğu yerlərdə internetin sürətinin azaldır və ya bağlayır.

Dövlət 2017-2020-ci illərdə internet məkanda propaqanda və yalan məlumatla mübarizə adı altında qanunlara, həmçinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanununa, etdiyi dəyişiklər nəticəsində internetdə tənqidi nitqə qarşı *senzuraya* imkan yaradıb.

30 dekabr 2021-ci ildə qəbul edilən yeni "Media Haqqında" qanun onlayn media azadlıqlarını, xüsusi ilə jurnalistlərin ifadə azadlığını, jurnalist mənbələrinin qorunmasına dair hüquqları və jurnalistlərin müdaxilələrdən azad fəaliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdırıb.

Dövlət internetə *nəzarət etmək* üçün "Telekommunikasiya haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlara və digər normativ hüquqi aktlarda göstərilmiş geniş səlahiyyətlərinə əsaslanır. Yerli qanunlar dövlət tənzimləmə funksiyalarının telekommunikasiyadan ayrılmasını əsas prinsip kimi müəyyən etsə də, telekommunikasiya fəaliyyətlərinin lisenziyalaşdırılması və sertifikatlaşdırılması internet istifadəçilərinin internetdəki fəaliyyətinə sui-istifadəyə açıq olan geniş nəzarət səlahiyyətləri verir.

2022-ci ilin aprelində internet idarəetməyə məsul əsas orqanın – Rəqəmsəl İnkişaf və Nəqliyyat Nazirliyinin yenidən strukturlaşdırılması bu sahədə köklü dəyişikliklərə gətirib çıxarmayıb. Hökümətin internet idarəçiliyi üzərində *inhisarçılığı* davam edib.

Repressiv qanunvericilik və onun özbaşına tətbiqi və buna qarşı səmərəli hüquqi müdafiə vasitələrinin mövcud olmaması Azərbaycanda hərkəsi internetdə ifadə azadlığından maneəsiz istifadə etməkdən əhəmiyyətli dərəcədə çəkindirir.

---

[1] Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi üzrə Avropa Şurasının Platformasının və tərəfdaş təşkilatların hazırladığı "Gərginlik və Münaqişə dövründə Mətbuat Azadlığının Müdafiəsi" adlı illik hesabatda (2022)[1] Azərbaycanın mətbuatı və öz vətəndaşlarını (ictimai və siyasi fəalları) izləmək üçün Azərbaycanın mobil casus proqramından (Pegasus) istifadə etdiyi qeyd olunur. Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi üzrə Avropa Şurasının Platforması, "Gərginlik və Münaqişə dövründə Mətbuat Azadlığının Müdafiəsi" hesabatı, https://fom.coe.int/en/pays/detail/11709482

[2] Litigating Pegasus in Azerbaijan: Addressing harms of the government-sponsored surveillance on civic groups in the absence of legal guarantees, August 24, 2022, https://www.az-netwatch.org/news/litigating-pegasus-in-azerbaijan-addressing-harms-of-the-government-sponsored-surveillance-on-civic-groups-in-the-absence-of-legal-guarantees/

Fəsil I. İnternetə çıxış

Giriş

İnternetin insan hüquq və azadlıqların reallaşmasında artan mühüm rolu ona çıxışın əhəmiyyətini də şərtləndirir. İfadə azadlığı çərçivəsində internet fərdlərin informasiya və ideyaları almaq və yaymaq hüququnun reallaşması, siyasi və ümumi maraq doğuran məsələlərə dair fəaliyyətlərdə və müzakirələrdə iştirak etmək üçün vacib vasitələr təqdim edir.[3] Avropa İnsan Hüquqları Məhkəməsinin (bundan sonra "AİHM") də qeyd etdiyi kimi, əlçatanlığı və böyük həcmdə məlumatı saxlamaq və ötürmək qabiliyyəti nəzərə alındıqda, internet ictimaiyyətin xəbərlərə çıxış imkanlarının genişləndirilməsində və ümumilikdə məlumatın yayılmasının asanlaşdırılmasında mühüm rol oynayır.[4] Bu səbəbdən internetə çıxış "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra Konvensiya) ifadə azadlığını qoruyan 10-cu maddəsinin təsir dairəsinə düşür.

"Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın (bundan sonra MSHBP) 19-cu maddəsinin 2-ci hissəsi "öz seçiminə uyğun olaraq istənilən digər media ilə" ifadəsindən istifadə etməklə internetə çıxışı ifadə azadlığının tərkib hissəsi kimi tanıyır.[5] Birləşmiş Millətlər Təşkilatı İnsan Hüquqları Şurasının ifadə və fikir azadlığı ilə bağlı Xüsusi Məruzəçisinin (bundan sonra "Xüsusi Məruzəçi") qeyd etdiyi kimi, əvvəl mövcud olan bütün rabitə vasitələrindən fərqli olaraq, internet fərdlərə dərhal və ucuz şəkildə kommunikasiya yaratmağa imkan verir, bu baxımdan da məlumat və ideyaların yayılması və əldə edilməsi üsuluna dramatik formada təsir göstərib.[6] Xüsusi Məruzəçi dövlətlərə çağırış edərək vurğulayır ki, onlayn məzmuna mümkün qədər az məhdudiyyət qoyulmaqla bütün fərdlərin internetə çıxışının asanlaşdırılması bütün dövlətlər üçün prioritet olmalıdır.[7]

Qeyd edək ki, internet yalnız ifadə azadlığının reallaşmasında yox, eləcə də insanların internet üzərindən bir-biri ilə əlaqə yaradaraq toplaşmaq və birləşmək azadlığını həyata keçiriməsində vacib rol oynayır. Bundan başqa, fərdlərə aid məlumatların yayılması və qorunmasına görə şəxsi həyat hüququna, zərərli məlumatların yayılması baxımından isə uşaq hüquqlarına da birbaşa təsir edir. Kommersiya baxımından isə insanlar get-gedə daha çox xidməti yalnız internet vasitəsilə əldə etməyə başlayırlar.[8]

İnternetin həyatımızda oynadığı mühüm rolu nəzərə alan bəzi dövlətlər internetə çıxış hüquq kimi tanıyıblar. Məsələn, Estoniya parlamenti 2000-ci ildə internetə çıxışı əsas insan hüquqlarından biri kimi tanıyan qanun qəbul edib. Fransanın Konstitusiya Şurası 2009-cu ildə faktiki olaraq internetə çıxışı fundamental hüquq elan edib, Kosta Rika Konstitusiya Məhkəməsi 2010-cu ildə analoji qərar qəbul edib.[9]

---

[3] *Cengiz və digərləri Türkiyəyə qarşı* işi. https://hudoc.echr.coe.int/eng?i=001-159188, §§ 49 və 52

[4] *Delfi AS Estoniyaya qarşı* işi. https://hudoc.echr.coe.int/eng?i=001-155105, § 133; *Ahmet Yıldırım Türkiyəyə qarşı* işi. https://hudoc.echr.coe.int/eng?i=001-115705, § 48

[5] Land, Molly K., Toward an International Law of the Internet (November 19, 2012). Harvard International Law Journal, Vol. 54, 2013. Səh. 410

[6] İfadə və rəy azadlığının təşviqi və qorunması üzrə Xüsusi Məruzəçinin 10 avqust 2011-ci il tarixli Məruzəsi, A/66/290. https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N11/449/78/PDF/N1144978.pdf?OpenElement, §10

[7] İfadə və rəy azadlığının təşviqi və qorunması üzrə Xüsusi Məruzəçinin 16 may 2011-ci il tarixli Məruzəsi, A/HRC/17/27. https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/G11/132/01/PDF/G1113201.pdf?OpenElement, § 2

[8] Kalda Estoniyaya qarşı işi. https://hudoc.echr.coe.int/eng?i=001-160270, § 52

[9] Yenə orada, § 65

İnternetin insan hüquqları və azadlıqlarında oynadığı bu mühüm rolu nəzərə alaraq, Azərbaycanda insanların internetə çıxışda üzləşdikləri hüquqi, texniki və siyasi əngəllərin müəyyənləşdirilməsi əhəmiyyətlidir. Çünki problemlərin doğru təsbit edilməsi onların aradan qaldırılamsı üçün atıla biləcək addımlar haqqında daha aydın təsəvvür yarada bilir.

Beləliklə, araşdırmanın birinci hissəsində Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarına kimin nəzarət etməsi və bu nəzarətin gətirdiyi nəticələri dəyərləndiriləcək. İkinci hissədə internetə çıxışın qismən və tamamən bağlanmasının qanunvericilik əsasları beynəlxalq insan hüquqları normaları və standartları çərçivəsində müqayisəli analiz ediləcək.

1.1. İnternetə kim nəzarət edir?

1.1.1. İnternetin tənzimlənməsində dövlət siyasəti

Azərbaycanda internet bazarında iştirak edən, ona nəzarət edən, eləcə də dövlət siyasətini və tənzimləməsini[10] həyata keçirən qurum Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir (RİNN).[11] RİNN-in həm bazarda iştirak payı, həm də onun tənzimləməsini həyata keçirməsi bir çox problemləri də özü ilə birgə gətirir. Belə ki, bazarda iştirakda hökmran mövqedə olmaq və onun tənzimləməsi (məsələn, lisenziya vermək hüququ) ilə bağlı səlahiyyətinin olması bir-birinə ziddir. Bu səlahiyyət bəzi hallarda ifadə azadlığının məhdudlaşdırılması ilə nəticələnir. BMT Xüsusi Məruzəçisinin qeyd etdiyi kimi, ifadə azadlığı hüququnu məhdudlaşdıran istənilən qanunvericilik hər hansı siyasi, kommersiya və ya digər əsassız təsirlərdən asılı olmayan qurum tərəfindən tətbiq edilməlidir.[12] Bir çox ölkələr bu ziddiyyətdən qaçmaq üçün informasiya və kommunikasiya texnologiyaları (İKT) sektoru üçün qaydalar yaratmaq və operatorlara lisenziya vermək işini müstəqil tənzimləyicilərə həvalə ediblər.[13] Asiya İnkişaf Bankı bu sahədə bərabərliyin təmini üçün müstəqil tənzimləyicinin olmasına xüsusi vurğu edir.[14] Belə ki, müstəqil tənzimləyici bazarda dinamizmə, innovasiyaya və investisiyaya müsbət təsir edir.

İnternet bazarında dövlətin payının çox yuxarı olması hüquqi mübahisələrin məhkəmə perspektivinə də təsir edə bilər. Belə ki, bazarda oyunçuların sayı çox olduqda və alternativlər artdıqca tərəflərin bərabərliyini təmin etmək və müqavilə azadlığı prinsipindən yararlanmaq daha asan olur. Dövlətin sahiblik etdiyi operatorların isə öz mülahizələrinə əsasən qiymətləri tənzimləmə şansları daha çoxdur. Belə olan təqdirdə, mülki münasibətlərə girən tərəflərin müqavilə azadlığı məhdudlaşır, onlar başqa alternativlərin daha keyfiyyətli təkliflərindən yararlana bilmirlər.

Ümumilikdə isə, beynəlxalq standartlara əsasən, internetə çıxışın ifadə azadlığının təmin edilməsində rolu nəzərə alınaraq məhkəmə qərarı olmadan internetə çıxışın kəsilməsi tövsiyə edilmir.[15] Bəzi hallarda müqavilə öhdəlikləri internetə çıxışın kəsilməsi ilə nəticələnə bilər,

[10] Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Əsasnamə https://mincom.gov.az/az/view/pages/2/
[11] Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2021-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılıb.
[12] Xüsusi Məruzəçinin 10 avqust 2011-ci il tarixli Məruzəsi, § 17
[13] Asian Development Bank, Azerbaijan: Country Digital Development Overview, səh. 3 https://www.adb.org/sites/default/files/institutional-document/484586/aze-digital-development-overview.pdf
[14] Asian Development Bank, Azerbaijan: Country Digital Development Overview, səh. 3 https://www.adb.org/sites/default/files/institutional-document/484586/aze-digital-development-overview.pdf
[15] AŞ Nazirlər Komitəsi tərəfindən qəbul edilən, üzv dövlətlərə internet istifadəçilərinin insan hüquqları Bələdçisi ilə bağlı CM/Rec(2014)6 saylı Tövsiyəsi. https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=09000016804d5b31, səh. 3

amma bu üsul "son vasitə" ("last resort") kimi tətbiq edilməlidir.[16] Azərbaycanda isə ümumi praktika bu şəkildədir ki, internet operatoruna edilməli olan ödəniş gecikdirildikdə, xidmət dayandırılır.[17]

1.1.2. İnternet bazarında rəqabətin vəziyyəti

Azərbaycanda sabit genişzolaqlı internet operatorları arasında bazar payı qeyri-bərabərdir. İnternet provayder xidməti göstərən şirkətlərin sayı çox olsa da, bazarda əsas oyunçular dövlətə məxsus "Aztelekom", "Baktelecom" və "AzDataCom"dur. Asiya İnkişaf Bankının 2019-cu il araşdırmasına[18] və bəzi mütəxəsislərin fikrinə,[19] dövlətin internet bazarında payı çox yuxarıdır. Bu isə internetə çıxış imkanlarına və onun keyfiyyətli təmin edilməsinə mənfi təsir edən faktordur.[20]

Dövlətin internet operatoru və provayderləri üzərində nəzarətinin birinci qaynağı bazarda *hökmran mövqedə*[21] olmasından qaynaqlanır. Yuxarıda qeyd edilən araşdırmalardan və mütəxəssis rəylərindən də göründüyü kimi, dövlətin payı 35%-i keçir və bu qanunverciliyə görə artıq hökmran mövqedir. İnternet bazarının, xüsusən, internetə çıxış üçün zəruri olan infrastrukturun bir və ya bir neçə operatorun inhisarı altında olması internetə çıxışı çətinləşdirən amillərdən biri hesab olunur.[22] Məhdud rəqabət internetə çıxış qiymətlərinin yüksək qalmasına da səbəb olur.[23] İnternetə çıxışın nisbətən yüksək qiyməti isə, öz növbəsində, bir çox insanın evdə internetə çıxışını da qeyri-mümkün edir.[24]

Dövlətin nəzarət orqanının (RİNN) internet bazarında *hökmran mövqe* tutmasının anti-inhisar qaydalarına görə haqsız rəqabətə yol açması İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 2019-cu ilin avqust ayında RİNN-in internet bazarında haqsız rəqabət aparması barədə qərarı ilə də təsdiqlənir.[25] Lakin Nazirliyin bu qərarı ilə bağlı hansı addımların atılması ilə bağlı açıq mənbələrdə hər hansı məlumat əldə etmək mümkün olmayıb.

Beynəlxalq institutlar da rəqabətin məhdud olduğu şəraitdə dövlətlərin internetə çıxışı asanlaşdırmaq üçün görə biləcəyi bəzi tədbirlərin olduğunu vurğulayır. Məsələn, BMT-nin Xüsusi Məruzəçisi bildirir ki, rəqabət məhduddursa, dövlətlər tənzimləmə səlahiyyətlərindən istifadə edərək vəziyyətə müdaxilə edə bilər. Dövlətlər həmçinin əhalinin ən yoxsul

---

[16] Yenə orada
[17] Məsələn, bax: Baktelecom, Müqavilə şərtləri. https://baktelecom.az/docs/muqavile.pdf, 3.2-ci bənd
[18] "Azerbaijan: Country Digital Development Overview," Asian Development Bank, January 2019, səh. 10, https://www.adb.org/sites/default/files/institutional-document/484586/aze-digital-development-overview.pdf
[19] Azərbaycanda internet niyə bahadır? https://qaynarinfo.az/az/azerbaycanda-internet-niye-bahadir-sebeb/
[20] Azərbaycanda internet niyə bahadır? https://qaynarinfo.az/az/azerbaycanda-internet-niye-bahadir-sebeb/
[21] "Antiinhisar haqqında" Qanunun 4-cü maddəsinə (Əsas anlayışlar) əsasən, hökmran mövqe dedikdə bazarda payı 35%-dən çox olan təsərrüfat subyekti nəzərdə tutulur.
[22] Xüsusi Məruzəçinin 10 avqust 2011-ci il tarixli Məruzəsi, § 65
[23] World Telecommunication/ICT Development Report 2010: Monitoring the WSIS Targets: A mid-term review, səh. 201
[24] Xüsusi Məruzəçinin 10 avqust 2011-ci il tarixli Məruzəsi, § 65
[25] Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəsmi vebsaytında 1 sentyabr 2020-ci ildən əvvəlki məlumatları əldə etmək mümkün deyil. Qərar haqqında Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz məlumat yayıb. "AzərConnect", "AzərTelecom" və digər operatorların "Baktelecom"a qarşı şikayətini araşdıran Antiinhisar Dövlət Xidməti RİNN-in Bakı şəhəri üzrə bəlli ərazilərdə kabel-kanal sisteminə ekspertiza-baxış keçirməsini, şəraitin olduğu yerlərdə sistemdən istifadə üçün dərhal imkanların yaratmasını, şəraitin olmadığı iddia olunan ərazilərdə isə bunun səbəbləri haqqında, kabel-kanal sisteminin gücü və mövcud durumu haqında Antiinhisar qurumuna əsaslandırılmış məlumat verməsini tələb edib Bax:https://musavat.com/news/antiinhisar-xidmeti-ozel-provayderlerin-sikayetini-temin-etdi_635261.html, https://toplum.tv/sosial/azerbaycanda-niye-internetin-qiymeti-baha-ve-sureti-zeifdir (son keçid: 14 sentyabr 2022-ci il)

təbəqələrinə çıxışı asanlaşdırmaq üçün internet xidmətlərinin və zəruri avadanlıqların subsidiyalaşdırılması imkanlarını nəzərdən keçirməlidir.[26]

1.1.3. Regionlarda internetə çıxışla bağlı vəziyyət və dövlətin öhdəlikləri

2022-ci il statistikasından məlum olur ki, Azərbaycanda əhalinin 57.2%-i şəhərlərdə, 42.8% rayon-kənd yerlərində yaşayır.[27] Onların böyük qisminin internetə çıxışı var.[28]



Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2021-ci ildə ölkədə əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı 87 nəfər, genişzolaqlı internet istifadəçilərinin sayı isə 85 nəfər olub. Ay ərzində internetdən 20 saat istifadə etmək üçün orta tarif 0,9 manat təşkil edib.[29] Ölkə üzrə istifadə olunan internetin məkanlar üzrə statistikasına gəldikdə[30]:

[26] Yenə orada, § 66
[27] Yenə orada
[28] Digital 2022: Azerbaijan. https://datareportal.com/reports/digital-2022-azerbaijan (son keçid: 14 sentyabr 2022-ci il)
[29] Dövlət Statistika Komitəsi | İnformasiya cəmiyyəti, İKT-nin əsas infrastruktur göstəriciləri. https://stat.gov.az/source/information_society/ (son keçid: 14 sentyabr 2022-ci il)
[30] Yenə orada, İnternetdən istifadə yeri (son keçid: 14 sentyabr 2022-ci il)

2021-ci ildə ölkə üzrə istifadə olunan internetin məkanlar üzrə statistikası:



2021-ci ildə şəhər və kənd əhalisinin internetdən istifadə məkanları üzrə statistikası:





Əhalinin şəhər və kənd üzrə say nisbəti

Şəhər və kənd əhalisinin internetə giriş intensivliyində isə fərq çox azdır[31]:

Şəhər və kənd əhalisinin internetə giriş intensivliyi (günlük və həftəlik qrafika):



Komitə 2022-ci ildə internet istifadəçilərinin sayı ilə bağlı məlumat dərc etməyib. RİNN-in məlumatına əsasən, Azərbaycanda genişzolaqlı xidmətlərdən istifadə haqqı orta aylıq əməkhaqqının 2-3%-ni təşkil edir.[32]

Şəhər və kənd ərazilərində internet istifadəçilərin sayının bir-birindən kəskin fərqlənməsi "rəqəmsal bölünmə"yə gətirib çıxarır. "Rəqəmsal bölünmə" termini rəqəmsal və informasiya texnologiyalarına, xüsusən də internetə effektiv çıxışı olan insanlarla çox məhdud və ya, ümumiyyətlə, çıxışı olmayan insanlar arasındakı bərabərsizliyə aid edilən termindir.[33] Kənd yerlərində insanlar tez-tez texnoloji əlçatanlığın olmaması, daha yavaş internet bağlantısı və/və ya daha yüksək xərclər kimi internetə çıxış üçün maneələrlə üzləşirlər.[34] Əlavə olaraq, iqtisadi cəhətdən imkanı daha yaxşı olan şəxslər daha çox məxfilik imkanları təklif edən və ifadə azadlığını daha çox təmin edən internet provayderlər seçə bilirlər, iqtisadi cəhətdən imkansız şəxslərin isə belə bir alternativi olmur, ona görə də yalnız öz imkanları çərçivəsində onlara təqdim edilən məxfilikdən və ifadə azadlığından yararlanırlar.[35]

Dövlət internetə universal çıxışı asanlaşdırmaq üçün pozitiv öhdəliklər daşıyır. Yoxsul şəxslərin və ucqar kənd yerlərində yaşayan insanların internetə çıxışını təşviq etmək üçün qiymət rejimləri, universal servis tələbləri, lisenziya müqavilələri daxil olmaqla tənzimləmə mexanizmlərini işə salmaq dövlətin vəzifəsidir.[36] Dövlət həmçinin İKT mərkəzlərinin və digər

[31] Yenə orada, İnternetdən istifadə tezliyi (son 3 ay ərzində)
[32] RİNN | İnformasiya texnologiyaları. https://mincom.gov.az/az/view/pages/10/ (son keçid: 14 sentyabr 2022-ci il)
[33] Xüsusi Məruzəçinin 16 may 2011-ci il tarixli Məruzəsi, § 61
[34] Yenə orada
[35] Nicole A. Ozer, Companies Positioned in the Middle: Municipal Wireless and Its Impact on Privacy and Free Speech, 41 U.S.F. L. Rev. 635, 654 (2007)
[36] İfadə Azadlığının Təşviqi üzrə Beynəlxalq Mexanizmlər – İfadə və internet azadlığı haqqında birgə Bəyannamə; BMT-nin Fikir və İfadə Azadlığı üzrə Xüsusi Məruzəçisi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Media Azadlığı

ictimai giriş nöqtələrinin yaradılması daxil olmaqla, internetə çıxışı asanlaşdırmaq üçün birbaşa dəstək tədbirləri görməlidir.[37] Bununla belə, ictimai giriş nöqtələri yaradarkən bu xidmətdən istifadə edən şəxslərin şəxsi həyata hörmət hüququnun qorunmasına xüsusi diqqət yetirilməlidir. Belə ki, dövlət tərəfindən maliyyələşdirilən sistemlər istifadəçi fəaliyyətini izləmək üçün qurula bilər, bu da hökumətin monitorinq və nəzarətlə məşğul olmasını asanlaşdırır və daha təhlükəsiz şəbəkələrə giriş əldə edə bilməyən iqtisadi cəhətdən imkansız şəxslərə qeyri-mütənasib təsir göstərir.[38]

İnternetə çıxışın asanlaşdırılması ilə bağlı dövlət öhdəlikləri ilə bağlı milli qanunvericiliyə nəzər yetirdikdə belə öhdəlikləri RİNN-in Əsasnaməsində müəyyən etmək mümkündür. Belə ki, Əsasnamədə göstərilir ki, ölkənin bütün yaşayış məntəqələrində əhalinin keyfiyyətli və etibarlı telekommunikasiya və genişzolaqlı internet xidmətləri ilə təmin olunması ilə bağlı zəruri tədbirlər hazırlamaq və həyata keçirmək Nazirliyin vəzifələrindən biridir.[39] Nazirliyin daha bir vəzifəsi əhalinin müxtəlif qrupları, şəhər və kənd yaşayış məntəqələri arasında informasiya texnologiyalarından istifadədə rəqəmsal fərqliliyin aradan qaldırılması üçün zəruri tədbirlər hazırlamaq və həyata keçirməkdir.[40]

Dövlət Statistika Komitəsinin məlumatını əsas götürsək, Azərbaycanda "rəqəmsal bölünmə"nin olmadığını demək olar. Bununla belə, RİNN öz səlahiyyətlərindən istifadə edərək regionlarda internet üçün tətbiq olunan qiymət rejimi ilə bağlı təkliflər planı hazırlayaraq təqdim edə bilər. Regionlarda sürətli internetin inkişafı üçün xüsusi dövlət proqramının hazırlanmasını da belə tədbirlər sırasına aid edə bilərik.

1.2. İnternetə çıxış və onun məhdudlaşdırılması

1.2.1. Müharibə şəraitində internetə çıxışın məhdudlaşdırılması

Hazırda dövlətlər internetə çıxışı məhdudlaşdıra (bloklama və filterləmə) və ya tamamilə kəsə bilir. Bloklama dedikdə müəyyən məzmunun istifadəçiyə çatmasının qarşısını almaq üçün görülən tədbirlər nəzərdə tutulur. Buraya istifadəçilərin xüsusi veb-saytlara, İnternet Protokolu (IP) ünvanlarına, domen adı uzantılarına daxil olmasının qarşısını almaq, onların yerləşdirildiyi veb-serverdən veb-saytların çıxarılması, yaxud açar sözlər və ya digər xüsusi məzmunu olan səhifələrin görünməsini istisna etmək üçün filtrləmə texnologiyalarından istifadə daxildir.[41] Kəsinti dedikə isə dövlətlərin internetə bütün çıxışı dayandırması nəzərdə tutulur.

Beynəlxalq standartlara əsasən, bütün əhalinin və ya ictimaiyyətin seqmentlərinin internetə və ya internetin bəzi hissələrinə çıxışın kəsilməsinə ictimai asayiş və ya milli təhlükəsizlik məqsədləri də daxil olmaqla, heç bir halda haqq qazandırıla bilməz.[42] Eyni şey internetdə və ya internetin ayrı-ayrı hissələrində tətbiq olunan yavaşlamalara da aiddir.[43]

üzrə Nümayəndəsi, Amerika Dövlətləri Təşkilatının (OAS) İfadə Azadlığı üzrə Xüsusi Məruzəçisi və İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyasının (ACHPR) İfadə Azadlığı və İnformasiyanın əldə eedilməsi üzrə Xüsusi Məruzəçisi. https://www.osce.org/files/f/documents/e/9/78309.pdf, § 6 (e) (i)

[37] Yenə orada, § 6 (e) (ii)

[38] Land, Molly K., Toward an International Law of the Internet (November 19, 2012). Harvard International Law Journal, Vol. 54, 2013. Səh. 415

[39] Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Əsasnamə, bənd 3.0.57

[40] Yenə orada, bənd 3.0.91

[41] Xüsusi Məruzəçinin 16 may 2011-ci il tarixli Məruzəsi, § 29

[42] İfadə və internet azadlığı haqqında birgə Bəyannamə, § 6 (b)

[43] Yenə orada

Avropa Şurası bəyan edir ki, dövlət orqanları ümumi bloklama və ya filtrləmə tədbirləri ilə ictimaiyyətin internetdə informasiya və digər kommunikasiyalara çıxışını qadağan etməməlidir.[44] AİHM-in mövqeyinə əsasən, internetə çıxışın bloklanması Konvensiyanın 10-cu maddəsinin 1-ci hissəsi ilə birbaşa ziddiyyət təşkil edə bilər.[45]

Belə ki, konflikt vəziyyətlərində internetə çıxışın məhdudlaşdırılması medianın da işini çətinləşdirə bilər. Münaqişə vəziyyətlərində və müharibələrdə ictimaiyyətin dəqiq və vaxtında informasiya ilə təmin edilməsində medianın rolu mühümdür. Avropa Şurası Nazirlər Kabineti bildirir ki, üzv dövlətlər münaqişə və hərbi təcavüz zamanı jurnalistikanın və medianın, yekun nəticədə ayrı-ayrı jurnalistlərin həlledici əhəmiyyətini və rolunu dərk etməlidir. Belə ki, münaqişəli vəziyyətlər çox vaxt hadisələrin düzgün başa düşülməsinə mane olmaq məqsədi güdən dezinformasiya kampaniyaları üçün münbit zəmindir.[46]

"Hərbi vəziyyət haqqında" Qanunun 10.1.23-cü maddəsinə əsasən, hərbi vəziyyət dövründə hərbi vəziyyət tətbiq edildiyi ərazidə (ərazilərdə) kütləvi informasiya vasitələrinin xüsusi fəaliyyət rejiminin tətbiq edilməsi, qanuni əsaslar olduqda onların fəaliyyətinin məhdudlaşdırılması və ya dayandırılması haqqında aidiyyəti orqanlara təqdimatlar verilməsi nəzərdə tutula bilər.[47]

27 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman izmalayıb.[48] Fərman həmin gün Milli Məclis tərəfindən təsdiq edildikdən sonra[49] RİNN ölkə üzrə internetin verilməsində məhdudiyyətlər tətbiq edəcəyi ilə bağlı məlumat yayıb.[50] Məhdudiyyətin tətbiq edildiyi dövrdə internetə çıxış bütövlükdə bloklanmasa da, əsas platformalardan sayılan "Facebook", "Instagram", "YouTube" kimi şəbəkələrə daxil olmaq mümkün olmayıb.[51] Məhdudiyyət 12 noyabr 2020-ci ildə götürülüb.[52]

Bu məhdudlaşdırma prosesində əsas problemlərdən biri məhdudlaşdırma üçün konkret müddətin nəzərdə tutulmamasıdır. "Hərbi vəziyyət haqqında" Qanunun 5.2.3-cü maddəsinə əsasən Fərmanda hərbi vəziyyətin tətbiqinin başlanma tarixi, vaxtı və qüvvədə olma müddəti elan olunmalı idi ancaq dövlət heç bir əsaslandırma gətirmədən bu hissəni boş buraxmışdı.[53]

Bu məhdudiyyətdə konkret müddətin göstərilməməsi ən ciddi problem idisə, məhdudiyyətin miqyası da hüquqi baxımdan problemi idi. İnternet istifadəçilərinin internetə (bu halda sosial şəbəkələrə) çıxışını qeyri-müəyyən müddətə məhdudlaşdırdığı üçün ifadə azadlığına müdaxilə var idi. Bu araşdırmanın ikinci fəslində də qeyd edildiyi kimi, ifadə azadlığına müdaxilənin hüquqauyğun hesab edilməsi üçün həmin müdaxilə qanunla nəzərdə

---

[44] AŞ Nazirlər Kabinetinin 28 may 2003-cü il tarixli Bəyannaməsi. https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectId=09000016805dfbd5, 3-cü prinsip

[45] *Ahmet Yıldırım Türkiyəyə qarşı* işi. § 67

[46] Avropa Şurası | İfadə azadlığı, İfadə azadlığı münaqişə vəziyyətlərində. https://www.coe.int/en/web/freedom-expression/freedom-of-expression-in-times-of-conflict#{%22118736059%22:[0]} (son keçid : 14 sentyabr 2022-ci il)

[47] "Hərbi vəziyyət haqqında" Qanun. https://e-qanun.az/framework/35170

[48] "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://president.az/az/articles/view/40979

[49] Milli Məclis "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanının təsdiq edilməsi barədə qərar qəbul etdi: https://meclis.gov.az/news.php?id=3026&lang=az

[50] RİNN-in açıqlaması. https://mincom.gov.az/az/view/news/990/ermenistanin-toretdiyi-genismiqyasli-texribatin-qarsisini-almaq-ucun-olke-uzre-internetin-verilmesi-mehdudlasdirildi

[51] Land, Molly K., Toward an International Law of the Internet (November 19, 2012). Harvard International Law Journal, Vol. 54, 2013. Səh. 410

[52] RİNN-in açıqlaması. https://mincom.gov.az/az/view/news/1050/olke-uzre-internetin-verilmesine-tetbiq-olunan-mehdudlasdirma-aradan-qaldirilir

[53] "Hərbi vəziyyət haqqında" Qanun. https://e-qanun.az/framework/35170

tutulmalı, legitim məqsəd daşımalı və demokratik cəmiyyətdə zəruri olmalıdır.[54] Hətta hesab etsək ki, müharibə şəraitində bütövlükdə sosial şəbəkələrin bloklanması qanunauyğunluq (Hərbi Vəziyyət haqqında Qanunda nəzərdə tutulması) və legitim məqsəd (milli təhlükəsizlik) testindən keçir, ancaq bu tədbirin miqyası nəzərə alındıqda, onun mütənasibliyi və demokratik cəmiyyətdə zəruriliyi kimi tələblərə uyğunluğu inandırıcı görünmür. Belə ki, birincisi, bu cür bloklamanın tətbiq edilməsi üçün zəruri sosial ehtiyac yox idi (məzmunun filtrlənməsinə daha çox ehtiyac var), ikincisi, miqyas baxımından əhalinin bütün hissələrinə və ölkənin bütün ərazisinə tətbiq edilən bu cür məhdudiyyət mütənasib deyildi. Bu baxımdan, müharibə şəraitində məzmun filtrlənməsinin və müəyyən ərazilərdə (hərbi əməliyyatlar olan və ona yaxın ərazilər) tətbiq edilməsi daha məqsədəuyğun idi. Bu cür yanaşma hərbi qanunvericiliyin tələblərinə də cavab verirdi.

1.3. Azadlıqdan məhrum edilmiş şəxslərin internetə çıxışı

Beynəlxalq standartlara əsasən, azadlıqdan məhrum edilmiş şəxslərin rifahı üçün qənaətbəxş fəaliyyət proqramı (iş, təhsil, idman və s.) həlledici əhəmiyyət kəsb edir. Bu, istər məhkum olunmuş şəxslər, istərsə də məhkəməni gözləyən şəxslərin saxlandığı bütün müəssisələr üçün keçərlidir.[55] Avropa Şurasının İşgəncələr və Qeyri-İnsani Rəftara qarşı Komitəsi (CPT) bildirir ki, azadlıqdan məhrum edilmiş şəxslərin hər biri ilə ayrıca məşğul olmaq mümkün olmasa da, kameralarda nə qədər yaxşı maddi şəraitin olmasından asılı olmayaraq, məhbusları sadəcə olaraq həftələrlə, bəlkə də aylarla, öz kameralarında saxlamaq olmaz.[56] Bu baxımdan, azadlıqdan məhrum edilmiş şəxslərə internet çıxışın təmin edilməsi həm onların təhsil hüququnu təmin edə, həm özünümüdafiə imkanlarını yaxşılaşdıra, həm də zamanlarını səmərəli keçirməsinə səbəb olmaqla onların islah olunmasına töhfə verə bilər.

Azərbaycanda şəxslərin məhkəməyəqədər saxlandığı həbs yerləri ilə cəzaçəkmə müəssisələrinin rejimi və şəraiti bir-birindən fərqlənir. Bu cür fərqləndirmə hüquqi tənzimləmələrdə da özünü göstərir.[57] Belə ki, effektiv istintaqın həyata keçirilməsi şəxslərin nisbətən daha sərt şəraitdə saxlanmasını tələb edə bilər. Barəsində istintaq hərəkətləri həyata keçirilən şəxslərin istintaqın gedişatına və ümumilikdə, ədalət mühakiməsinin həyata keçirilməsinə mane olmasının qarşısını almaq üçün məhkəməyəqədər saxlama yerlərinə daha sərt tələblərin tətbiq edilməsi anlaşılandır. Əks halda, onların sübutları yararsız hala salmaq və ya keyfiyyətini korlamaq, şahidlərə təsir etmək, o cümlədən ehtimal edilən cinayət əməlini sübut etmək üçün lazım olan digər elementləri sıradan çıxarmaq təhlükəsi yarana bilər. Məhkumlar üçün cəzaçəkmə müəssisələrində rejimlər isə daha əlverişli olmalıdır.[58]

Təhsil hüququ ilə bağlı

[54] Fəsil II, 2.1.1 Ümumi ifadə azadlığı təminatları

[55] İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) 13 aprel 1992-ci il tarixli, CPT/Inf (92) 3 [EN] saylı İkinci Ümumi Məruzəsi. https://rm.coe.int/1680696a3f, § 47

[56] Yenə orada

[57] Məsələn, məhkəməyəqədər saxlanma yerlərinin hüquqi rejimi "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunla və Həbs yerlərinin daxili intizam Qaydaları ilə tənzimlənirsə, azadlıqdan məhrum edilmiş məhkumlara Cəzaların İcrası Məcəlləsi və Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları şamil edilir. Bunu istintaqın həyata keçirilməsinin xüsusiyyətləri ilə əlaqələndirmək olar.

[58] Yenə orada

Avropa Şurası üzv dövlətlərə tövsiyə edir ki, məhkumların təhsilinin bütün aspektlərində fəal iştirakını təşviq etmək üçün hər cür səy göstərsinlər və onların təhsil alması üçün lazım olan avadanlığı təmin etsinlər.[59] Azərbaycanda isə, aşağıda göstərildiyi kimi, məhkumların təhsil alması üçün internetə çıxış təmin edilmir. Əlavə olaraq, beynəlxalq standartlara əsasən, hər bir həbsxana bütün məhbusların istəkləri nəzərə alınmaqla, mümkün qədər əhatəli və fərdi ehtiyaclara cavab verən təhsil proqramlarına çıxışı təmin etməyə çalışmalıdır.[60] Azərbaycanda məhkumların internetə çıxışı təmin edilmədiyindən əhatəli və fərdi ehtiyaclara cavab verən təhsil proqramlarının tətbiq edildiyini demək olmaz.

Cəzaların İcrası Məcəlləsinin 10.2.10-cu maddəsinə əsasən, təhsil almaq və peşə hazırlığı keçmək məhkumların hüququdur.[61] Həbs yerlərini tənzimləyən qanunvericilik də təhsil hüququnun reallaşdırılmasına imkan yaradır. Hətta təhsil alan şəxslər üçün dərsliklərin və dərs ləvazimatlarının verilməsinə, eləcə də istintaq təcridxanalarındakı köşklər vasitəsilə satılmasına icazə verilir.[62] Lakin maraqlıdır ki, "Həbs yerlərinin daxili intizam Qaydaları"na əsasən, internet şəbəkəsinə daxil olmaq üçün vasitəçi qurğular qadağandır.[63] Yəni həbs yerlərində saxlanan şəxslərin internet üzərindən təhsil alması mümkün deyil.

Bununla belə, Cəzaların İcrası Məcəlləsində və "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarında" məhkumların internetə çıxışa ilə bağlı hər hansı qadağa və ya birbaşa göstəriş yoxdur. Bu halda nəzəri olaraq ehtimal etmək olar ki, məhkumların internetə çıxış hüququ var. Praktikada isə məhkumların internetdən istifadə etməsinə icazə verilmir.

Beynəlxalq praktikada məhkumların internetə çıxışının islah əhəmiyyətinin ola biləcəyi qəbul edilir. Məhkumların internet vasitəsilə təhsil alması bu baxımdan xüsusi fərqləndirilir. AİHM-in presedent hüququnda məhkumların təhsil hüququ ilə bağlı işlər var və Məhkəmənin mövqeyinə əsasən, məhkumların internetə çıxışına icazə verildiyi hallarda onların təhsil alması üçün lazımi şəraitin təmin edilməməsi Konvensiyanın 1 saylı Protokolun 2-ci maddəsində nəzərdə tutulan təhsil hüququnun pozulmasına səbəb ola bilər.[64] Bu, xüsusən, o hallara aid edilir ki, qanunvericiliklə məhkumların internetə çıxışına icazə verilir (yaxud ən azı, qadağan edilmir), lakin onların internet üzərindən təhsil almasına maneələr yaradılır. Bu baxımdan, məhkumların internetə çıxışının mümkün olduğu hallarda, onların internet üzərindən təhsil almaq hüququna müdaxilə etmək üçün xüsusilə inandırıcı əsaslar tələb edilir.[65]

Özünümüdafiə imkanları ilə bağlı

AİHM bildirib ki, Konvensiya hüquqlarının tətbiq edilməsi həbsxana qapısında ilişib qalmır.[66] Məhkumlar onların qanuni şəkildə azadlıqdan məhrum edilməsindən irəli gələn məhrumiyyətlər istisna olmaqla, bütün Konvensiya hüquqlarından yararlanmağa davam edirlər. Bu baxımdan, əgər məhkumların internetə çıxışı qanunla tanınırsa, onları bu hüquqdan məhrum

[59] AŞ Nazirlər Kabinetinin üzv dövlətlərə həbs yerlərində təhsillə bağlı 13 oktyabr 1989-cu il tarixli, R(89)12 saylı Tövsiyəsi. https://rm.coe.int/09000016804c858f, §§ 6 və 17
[60] Avropa Həbsxana Qaydaları. https://rm.coe.int/european-prison-rules-978-92-871-5982-3/16806ab9ae, § 28.1
[61] Cəzaların İcrası Məcəlləsi. https://www.e-qanun.az/framework/46951
[62] Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. https://e-qanun.az/framework/33805
[63] Yenə orada
[64] Məsələn, bax : *Mehmet Reşit Arlslan və Orhan Bingöl Türkiyəyə qarşı* işi. https://hudoc.echr.coe.int/eng?i=001-194194, § 72
[65] Yenə orada
[66] *Xodorkovski və Lebedev Rusiyaya qarşı* işi. https://hudoc.echr.coe.int/eng?i=001-122697, § 836

etmək üçün əsaslı səbəblər irəli sürülməlidir. Məhkumların internetə çıxışı onların öz hüquq və azadlıqlarından xəbərdar olması və öz müdafiələrini hazırlaması üçün də mühümdür.[67] Bununla belə, məhkumların ifadə azadlığından söhbət gedirsə, əldə edilməsi nəzərdə tutulan məlumatın ictimai formada yayılıb-yayılmadığı da nəzərə alınmalı olan amillərdən biridir.[68] Əgər məlumat ictimai formada yayılıbsa, həmin məlumata çatımlılığa müdaxilə etmək üçün xüsusilə əsaslı səbəblər irəli sürülməlidir.

Azərbaycanda həbs yerlərində və cəzaçəkmə müəssisələrində məhkumların internetə çıxışı təmin edilmədiyindən, bu, onların özünümüdafiə imkanlarına da təsir edə bilər. Xüsusən, bəzi məhkəmə qərarlarının yalnız onlayn şəkildə mövcud olduğunu nəzərə alsaq, problem daha da aydın olur. Əlavə olaraq, kağız daşıyıcılarda materialların həbsdə saxlanılan şəxslərə və məhkumlara ötürülməsi onların effektiv müdafiəsinin təmin edilməsi üçün kifayət deyil. Belə ki, özünümüdafiə yalnız hansısa məhkəmə qərarının və ya hüquqi aktın təhlil edilməsini yox, həm də müdafiənin təşkil edilməsi üçün ümumi hərtərəfli araşdırmanın həyata keçirilməsini tələb edir. İnternetin olmadığı şəraitdə isə bu cür araşdırmanı reallaşdırmaq mümkün deyil.

1.4. "Elektron məhkəmə" sisteminin məhkəməyə çatımlılığa təsirləri

Məhkəməyə çatımlılıq hüququ fundamental insan hüquqlarından biri kimi həm Azərbaycan Konistitusiyası[69], həm də AHİK-ı[70] və MSHBP-ı[71] tərəfindən qorunur.

Azərbaycanda "Elektron məhkəmə" informasiya sisteminin yaradılmasına 2014-cü ildə prezident sərəncamı ilə başlanılıb[72] və bu proses sonradan daha da sürətlənib.[73] Lakin elektron məhkəmə sisteminin tətbiqi məqsədi ilə prosessual qanunvericiliyə edilən dəyişiklikər məhkəmələrə çatımlılıq hüququnu bir sıra səbəblərə görə həm də çətinləşdirib.

Belə ki, 18 dekabr 2018-ci ildən etibarən Mülki Prosessual Məcəlləyə (MPM) əlavə edilən 10-1-ci maddə ilə "Elektron məhkəmə" sistemi yaradılıb və mülki işlər və kommersiya mübahisələrinin məhkəmə icraatının elektron qaydada aparılması imkanı müəyyən olunub.[74] Bununla belə, 9 iyul 2021-ci ilə kimi MPM-in 10.1.4.-cü maddəsi "Elektron məhkəmə" icraatına alternativ olaraq ənənəvi icraatdan da yararlanmaq imkanı verirdi. Lakin elə həmin tarixdə MPM-in 10.1.4.-cü maddəsi ləğv edildi[75] və əlavə edilən yeni 10-1.5.-ci maddə ilə ənənəvi icraatdan elektron məhkəmə sisteminin tətbiq edildiyi məhkəmələrdə istifadə dayandırıldı.[76]

---

[67] Məsələn, bax : *Kalda Estoniyaya qarşı* işi, § 50

[68] Bax və müqayisə elə : *Yankovskis Litvaya qarşı* işi, https://hudoc.echr.coe.int/eng?i=001-170354, § 53 və *Magyar Helsinki Bizottság Macarıstana qarşı* işi, https://hudoc.echr.coe.int/eng?i=001-167828, §§ 149-156

[69] AR Konistitusiyası 60-cı və 127-ci madddələri

[70] Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi

[71] Paktın 14-cü maddəsi

[72] "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı, https://president.az/az/articles/view/11019

[73] Belə ki, 22 noyabr 20221-ci il tarixli müsahibəsində Ədliyyə Naziri Azərbaycanda fəaliyyət göstərən 117 məhkəmənin 77-də, başqa sözlə, üçdə ikisində elektron məhkəmə sistemi tətbiq olunduğunu və artıq gələn ildən bütün məhkəmələrin elektron məhkəmə sistemi ilə əhatə olunacağını qeyd edib. https://report.az/daxili-siyaset/gelen-il-azerbaycanda-butun-mehkemelerde-elektron-sistem-tetbiq-olunacaq/

[74] MPM maddə 10-1

[75] MPM maddə 10.1.4: Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə həyata keçirilə bilər.

[76] MPM maddə 10-1.5-ci maddə: Bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada təqdim edilmiş sənədlərin digər qaydada verilməsi tələb oluna bilməz

MPM-ə edilən əlavə və dəyişikliklərdən sonra məhkəmə prosesinin iştirakçıları yalnız "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə ərizələrini, şikayətlərini və digər sənədlərini göndərməli və məhkəmə sənədlərini əldə etməlidir. İnsanlar "Elektron Məhkəmə"dən istifadə üçün elektron kabinet yaratmalı və ondan istifadə üçün Vahid Giriş Sistemi ("ASAN login") əldə etməlidir.[77]

MPM-ə əsasən sübutların tədqiqi elektronlaşdırıldığı[78] kimi işə baxan hakimin qətnaməsi də yalnız elektron məhkəmə icraatı materiallarına əlavə edilmiş və məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırılmalıdır.[79] Elektronlaşdırlmış məhkəmələrdə apellyasiya və kassasiya şikayətlərinin düzgün verilməməsi onların geri qaytarılması üçün əsas təşkil edir.[80]

Beləliklə, MPM-yə edilmiş əlavə və dəyişikliklər, eləcə də müxtəlif inzibati qərarları ilə dövlət kommersiya və mülki işlər üzrə insanların məhkəməyə çatımlılığını tam elektronlaşdırır. Doğrudur ki, hazırda bütün məhkəmələrin tam elektronlaşdırlmadığı üçün hökümət bu dəyişiklikləri tam tətbiq etmir.[81] Lakin elektron məhkəmə siyasəti əhalinin internetə və komputerə çıxışı məhdud olan bölgələri üzrə yox məhkəmələrin özünün texniki imkanları nəzərə alınaraq edilir. Yuxarıda verilmiş birinci infoqrafikadan da məlum olur ki, Azərbaycan əhalisinin 18.9%-nin internetə çıxışı yoxdur. İnternetə çıxış olmadığı üçün elektron kabinet yarada bilməyən insanların məhkməyə çatımlılığı praktik olaraq mümkünsüz olur. Nəticədə insanların məhkəməyə çatımlılıq kimi fundamental insan hüququ pozulur.

1.5. İnternetə çıxışa siyasi əngəllər

İnternetə çıxış bütün ölkələrdə birbaşa hüquq kimi tanınmır, amma onun ifadə azadlığının tərkib hissəsi olması artıq mübahisələndirilmir. Bu baxımdan, dövlətlərin şəxslərə heç bir ayrıseçkilik qoyulmadan bərabər formada internetə çıxışı təmin etmək öhdəliyi yaranır. AİHK-nin 14-cü maddəsi və MSHBP-nin 26-cı maddəsi şəxsləri ayrıseçkiliyə, o cümlədən siyasi fikirlərə görə fərqli rəftara məruz qalmaqdan qoruyur.

Azərbaycanda ayrı-ayrı şəxslərin siyasi fikirlərə görə internetə çıxışının məhdudlaşdırılmasına sistemli şəkildə rast gəlinmir. Bununla belə, bəzi hallarda siyasətçilərin internetə çıxışının məhdudlaşdırılması praktikasından istifadə edilir. Jurnalistlərin fəaliyyətinə görə vebsaytların bloklanması halları isə geniş yayılıb.

13 aprel 2020-ci il ildə Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimlinin internetə çıxışının bloklanması ilə bağlı məlumat yayılıb. Bloklanma koronavirus pandemiyası çərçivəsində tətbiq edilən karantin tədbirləri zamanı baş verdiyindən siyasətçi və ailə üzvləri yaşayış yerini icazəli şəkildə tərk etmək imkanından məhrum olublar.[82]

[77] Ədliyyə Nazirliyinin Kollegiyasinin qərari 16 oyul 2019-cu il qərarı – "Elektron məhkəmə" informasiya sistemindən istifadə Qaydaları"
[78] MPM 193.2.-cü maddə
[79] MPM 217.5.-ci maddə
[80] MPM-in 363.1.5. və 408.1.7.-ci maddələri
[81] https://www.e-huquq.az/az/news/mehkeme/36536.html
[82] Əli Kərimli qanunsuz olaraq informasiya blokadasına salınıb. https://faktyoxla.info/articles/Eli-Kerimli-qanunsuz-olaraq-informasiya-blokadasina-salinib (son keçid: 15 sentyabr 2022-ci il)

Xəbər vebsaytlarının bloklanması isə oturuşmuş praktikaya çevrilib. Hazırda ölkədə 35-dən çox vebsayta giriş mümkün deyil.[83] Bəzi vebsaytların bloklanması haqqında məhkəmə qərarı yoxdur. Bu araşdırmanın ikinci və üçüncü fəsillərində də aşkarlandığı kimi xəbər saytlarının bloklanması həm yerli qanunverciliyin, həm də AİHK-nın pozulması ilə nəticələnib. Araşdırmanın növbəti iki fəsillərində bu barədə əhatəli analiz verilib.[84]

[83] Bloklanan vebsaytlar : https://www.meydan.tv/az/, https://www.azadliq.org/, https://www.azadliq.info/, http://abzas.net/, https://criminal.az/, http://anaxeber.az/, http://monitortv.info/, https://teref.info/, http://bastainfo.com/, http://nia.az/, http://gununsesi.az/, https://gununsesi.org/, http://kanal13.tv/, http://humanrightsclub.net/, http://azerbaycansaati.tv/, http://24saat.org/, http://xeber-xetti.az/, http://realliqinfo.az/, http://realliqinfo.com/, http://realinfo.az/, http://realliqinfo.org/, http://realliq.az/, http://realliq.info/, http://infoaz.org/, http://euroasiainfo.com/, http://euroasianews.blog/. http://xn--avropannsesi-74b.org/, http://euroasianews.org/, http://xalqinsesi.com/, http://qanunxeber.az/. http://ulus.az/. http://sonolay.org/. http://obyektiv.org/, http://vediinfo.az/, http://politika.az/, http://neytral.az/,

[84] Bax: III Fəsil, 3.1.2. Milli qanunvericiliyin tətbiqi: ifadə azadlığı standartlarına əsas uyğunsuzluq halları

Fəsil II. Azərbaycanda internetdə məzmunu tənzimləyən milli qanunvericilik və beynəlxalq standartlara uyğunluq

Giriş

Beynəlxalq İnsan Hüquqları Hüququnda (BİHH) ifadə azadlığı təməl hüquqlardan biri sayılır və normativ beynəlxalq hüquqi çərçivə tərəfindən mühafizə edilir. AİHK-nin 10-cu maddəsi və MSHBP-in 19-cu maddəsi ifadə azadlığı hüququnun əsas təminat mexanimzləridir. İfadə azadlığı müxtəlif üsul və formalarda təzahür edir. Yaşadığımız internet və informasiya texnologiyaları əsrində onlayn ifadə kontenti ifadə azadlığı hüququnun ən çox populyarlaşdığı və yayıldığı üsul və formadır. Bu baxımdan onlayn ifadə azadlığının hüquqi mühafizəsi və müdafiəsi BİHH-in inkişaf etməkdə olan mühüm sahələrindən biri sayılır.

İnformasiya texnologiyalarının inkişafı bir tərəfdən ifadə azadlığı daxil olmaqla insan hüquqlarının effektiv şəkildə reallaşdırılmasına xidmət etsə də, digər tərəfdən insan hüquqları üzrə öhdəlik daşıyan dövlətlərin insan hüquqlarına münasibətdə tətbiq etdiyi məhdudiyyətlərin də daha kəskin formada tətbiqinə imkan verir. Belə ki, mövcud informasiya texnologiyaları dövlətlərə onlayn informasiyanın qarşısını almaq üçün müxtəlif əlavə vasitələr verir. Belə vasitələrdən biri də onlayn informasiyanın bloklanmasıdır. Bu baxımdan informasiya texnologiyalarının inkişafı özlüyündə insan hüquqlarının effektiv realizəsinin formalaşdırılması üçün kafi deyil. Bununla yanaşı, belə hüquqları effektiv müdafiə edəcək beynəlxalq və milli hüquqi çərçivələrin və normativ aktların olması vacibdir.

Bu yazı çərçivəsində onlayn mühitdə informasiya məzmunun milli hüquqi tənzimləməsi və həmin tənzimləmənin beynəlxalq insan hüquqları öhdəlikləri ilə uyğunluğu Azərbaycan Respublikasının nümunəsində nəzərdən keçirilir. Bu yazının hasil etdiyi nəticə ondan ibarətdir ki, milli hüquqi tənzimləmənin təminatları BİHH öhdəliklərini icra etmək üçün əhəmiyyət kəsb edir. Yazı həmçinin o nəticəni hasil edir ki, Azərbaycanın onlayn media tənzimləməsinə dair qanunvericiliyi BİHH öhdəlikləri ilə uzlaşmır.

2.1. İfadə azadlığının beynəlxalq hüquqi təminatları və həmin təminatların onlayn məzmun tənzimləməsi apskektləri

2.1.1 Ümumi ifadə azadlığı təminatları

İfadə azadlığı həm normativ hüquqi, həm də yumşaq hüquq (soft law) səviyyəsində mühafizə olunan təməl hüquqlardan biridir. İfadə azadlığının normativ hüquqi təminatları MSHBP-ın (1966) 19-cu maddəsi[85] və AİHK-in (1950) 10-cu maddəsidir.[86] Hər iki normativ hüquqi format ifadə azadlığını avtonomiya hüquqlarından biri kimi nisbi hüquq kimi müəyyənləşdirir. İfadə azadlığının nisbi hüquq olması o mənaya gəlir ki, ifadə azadlığı bir sıra hallarda məhdudlaşdırıla bilər. Belə məhdudlaşdırma ya ictimai mənafedən irəli gələ bilər ya da digər şəxslərin hüquqlarının müdafiəsi ilə müdaxiləyə məruz qala bilər. Bununla yanaşı, qeyd edək ki, ifadə azadlığının nisbi (məhdudlaşdırılabilən) hüquq olması onun BİHH öhdəliyi

[85] Mülki Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-covenant-civil-and-political-rights; https://digitallibrary.un.org/record/715606/
[86] Avropa İnsan Hüquqları Konvensiyasının, https://www.echr.coe.int/documents/convention_eng.pdf

daşıyan dövlətlər tərəfindən istəyə görə istənilən halda məhdudlaşdırıla biləcəyi mənasına gəlmir. İfadə azadlığının məhdudlaşdırılması bir sıra şərtlərə cavab verməlidir. Bu şərtlər isə ciddi yoxlamaya (nəzarətə) tabedir.

İfadə azadlığının məhdudlaşdırılması şərtləri (standartları) həm MSHBP-ın, həm də AİHK-in mətnində müəyyənləşdirilir. Bununla yanaşı, hər iki beynəlxalq müqavilənin icrasına dair nəzarət mexanizmləri (MSHBP timsalında İHK və AİHK nümunəsində isə AİHM) məhdudlaşdırılma əsaslarını dəqiqləşdirməklə məşğul olurlar.[87] Bu cür dəqiqləşdirmə AİHM səviyyəsində verilən şikayətlərə işbəiş (ingiliscə: *case by case*) baxmaqla, İHK səviyyəsində isə həm ümumi şərhlər (ingiliscə: *general comments*), həm də verilən şikayətlərə işbəiş baxmaqla həyata keçirilir. Bugünə qədər AİHM və İHK tərəfindən ifadə azadlığı hüququnun məhdudlaşdırılmasına dair müəyyən çərçivələr müəyyənləşdirilib. Həmin çərçivələr həm beynəlxalq hüquqi öhdəliklər götürməklə (beynəlxalq müqavilələrə tərəfdar çıxmaqla/ratifikasiya etməklə), həm də öz milli hüququnda müvafiq normativ qaydalar müəyyənləşdirməklə BİHH öhdəliyi daşıyan dövlətlər (o cümlədən Azərbaycan Respublikası) tərəfindən qəbul edilib. İfadə azadlığına qoyulabilən məhdudiyyətləri iki kateqoriyaya bölmək mümkündür:[88]

1) İfadə azadlığının məhdudiyyətlərinin substantiv aspektləri;
2) İfadə azadlığı məhdudiyyətlərinin prosedural aspektləri.

İHK və AİHM mövcud normativ hüquqi çərçivə (MSHBP və AİHK) əsasında ifadə azadlığının substantiv məhdudiyyətləri kimi üçpilləli yoxlama mexanizmi (ingiliscə*: tripartite test*) tətbiq edir:[89]

a) İfadə azadlığına qoyulan məhdudiyyətlər ölkədaxili qanunvericiliyə əsasən həyata keçirilməlidir (hüququn aliliyi aspekti);
b) İfadə azadlığına qoyulan məhdudiyyətlər normativ hüquqi çərçivədə legitim (məqbul) əsas kimi qəbul edilmiş məqsədlərə əsaslanmalıdır;[90]
c) İfadə azadlığına qoyulan məhdudiyyətlər demokratik cəmiyyətdə zəruri olmalı və qarşıya qoyulan legitim məqsədə münasibətdə mütənasib xarakter daşımalıdır.

İfadə azadlığının prosedural təminatlarına prosessual ədalətlilik prinsipi aiddir.[91] Prosessual ədalətlilik prinsipinə əsasən ifadə azadlığına qoyulan məhdudiyyətlər tətbiq edilərkən ümumi prosessual üsul və qaydalara riayət edilməlidir. İfadə azadlığına qoyulan

[87] CCPR General Comment: https://www2.ohchr.org/english/bodies/hrc/docs/gc34.pdf.
[88] Huseynova v. Azerbaijan, ECHR, 10653/10, 13.04.2017, JOINT PARTLY DISSENTING OPINION OF JUDGES NUSSBERGER AND VEHABOVIĆ: https://hudoc.echr.coe.int/eng?i=001-172661.
[89] Guide on Article 10 of ECHR, CoE publication: https://www.echr.coe.int/documents/guide_art_10_eng.pdf.
[90] MSHBP (19-cu maddənin 3-cü bəndi) legitim məqsəd kimi digər şəxslərin hüquqları və reputasiyasını, milli təhlükəsizlik, ictimai qayda, ictimai səhiyyə və əxlaqın mühafizəsini qəbul edir; AİHK (10-cu maddənin 2-ci bəndi) legitim məqsədlər kimi aşağıdakıları sadalayır: milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları, iğtişaşın və ya cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın qorunması, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyi. MSHBP və AİHK-in legitim məqsədlər siyahıları arasında fərqlər mövcud olmasına baxmayaraq, bunların hər ikisi təxminən eyni əsasları nəzərdə tutur (sadəcə olaraq AİHK detallaşdırıcı sadalamanı seçsə də, MSHBP ümumi numerasiya ilə kifayətlənib).
[91] D. J. Galligan, Procedural Fairness in Europe: The European Convention on Human Rights and the European Union, 1997: https://doi.org/10.1093/acprof:oso/9780198256762.003.0007.

məhdudiyyətlər ədalət mühakiməsi və səmərəli hüquqi müdafiə vasitələri hüququnun ümumi təminatlarına müvafiq gəlməlidir.

Yuxarıda qeyd edilən substantiv və prosedural aspektləri məxsusi detallaşdırma tələb edir. AİHK-in 10-cu maddəsinə əsasən ifadə azadlığı hüququna yalnız qanunla nəzərdə tutulmuş hallarda, Konvensiyanın 10-cu maddəsində göstərilmiş legitim məqsədlərə nail olmaq üçün və demokratik cəmiyyətdə zəruri olduqda və nəzərdə tutulmuş tədbir qarşıya qoyulmuş məqsədə mütənasib olduqda müdaxilə edilə bilər.

Müdaxilənin qanuna əsaslanması məqsədləri baxımından "qanun" dedikdə, yalnız parlamentin qəbul etdiyi qanunlar deyil, hakimiyyət orqanları tərəfindən qəbul edilən və ümumi tənzimləmə rolu oynayan istənilən qaydalar toplusunu nəzərdə tutulur.[92] Lakin hakimiyyət orqanları tərəfindən qəbul edilmiş hər hansı qaydalar toplusunun "qanun" sayıla bilməsi üçün bu qaydalar "hüquqi müəyyənlik" prinsipinə cavab verməlidir. Bu prinsipinə cavab verməsi üçün hər hansı qaydalar toplusu aşağıdakı tələblərə cavab verməlidir:[93]

- Çatımlılıq (bu adətən dərc edilmə ilə baş verir): "Qanun" sayılan hüquqi mətnlər onu icra etməli olan şəxslər tərəfindən bilinməlidir. Bunun üçün də ictimaiyyət öyrənə biləcəyi qaydada dərc edilməlidir;
- Kifayət qədər aydınlıq: Hüquqi mətnlərdə mücərrəd ifadələr işlədilməsi normaldır. Amma bu ifadələr qeyri-müəyyən olmamalıdır;
- İcrasında "öncədəngörüləbilənlik" dəqiqliyi: Qanunu icra etməli olan şəxs ağlabatan hüquqi yardım almaqla onda göstərilən qaydalara uyğun olaraq öz addımlarını dəqiq ehtimal edə bilməlidir;
- Prosessual təminatlar: Qanunun hakimiyyət orqanları tərəfindən özbaşına sui-istifadə edilməməsi üçün prosessual təminatlar mövcud olmalıdır.

Müdaxilənin legitimliyi dedikdə Konvensiyanın 10-cu maddəsinin 2-ci bəndində göstərilən legitim məqsədlərin siyahısında göstərilən məqsədlərdən birini daşıyıb-daşımaması başa düşülür.

Müdaxilənin demokratik cəmiyyətdə zəruri olması üçün isə müdaxilə maddi-hüquqi və prosessual hüquqi baxımdan aşağıdakı "obyektiv indikatorlara" uyğun olmalıdır:[94]

- Təxirəsalınmaz sosial tələbat (yaxud zəruri əsaslar): Müdaxilə edilən hüququn balanslaşdırılmasını zəruri edən konkret xüsusatlar. Məsələn, kiminsə cinayət törətməsinə əsaslı şübhələr varsa, bu halda onun evində axtarış aparılması cinayətin açılması üçün zəruri hesab edilə bilər. Yaxud kimsə öz inancını ifadə edərkən başqalarına qarşı zorakılığa çağırarsa və bu çağırışın başqalarına qarşı hücumların təşkil edilməsinə əsas olmasını nümayiş etdirən hallar varsa, onun inancını ifadə etməsi məhz bu halla bağlı məhdudlaşdırıla bilər.
- Mütənasiblik: Hüquq müdaxilə edilməsi üçün təxirəsalınmaz sosial tələbat olduğu müəyyən edildikdən sonra müdaxilənin hansı tədbirlərlə həyata keçirilməsi

[92] Hətta ölkə qanunvericiliyi imkan veridiyi hallarda məhkəmələrin "presedent hüququ" da (yuxarı məhkəmələr tərəfindən qəbul edilmiş eyni hallar üzrə tətbiq ediləbilən məhkəmə qərarları) "qanun" anlayışına daxildir.

[93] Avropa İnsan Hüquqları Konvensiyasının 8-11-ci maddələrinə istisnalar, AŞ nəşri: https://www.echr.coe.int/LibraryDocs/DG2/HRFILES/DG2-EN-HRFILES-15(1997).pdf.

[94] Bax yuxarıda.

nəzərdən keçirilir. Müdaxilə təşkil edə bilən tədbirlərin sahəsi genişdir. Mütənasibliyi yoxlayanda nəzərə alınmalıdır ki, daha yüngül tədbirlər seçilsin və tədbirlər qarşıya qoyulan məqsədlə uyğunlaşsın. Məsələn, kiməsə böhtan atılması şəxsin ifadə azadlığına müdaxilə edilməsi üçün əsasdır. Lakin böhtan atdığına görə həmin şəxsin həbs edilməsi mütənasib tədbir olmayacaq.

- Qiymətləndirmə sərbəstliyi: Dövlətlər müəyyən qədər qiymətləndirmə sərbəstliyinə malikdirlər. Lakin bu qiymətləndirmə sərbəstliyi ayrı-ayrı məsələlərdən asılı olaraq geniş və ya dar ola bilər. Əgər hər hansı məsələ barəsində Avropa Şurası ölkələrinin əksəriyyətində yaxud dövlətin qoşulduğu Konvensiyalarda daha müştərək və konkret tənzimləmələr nəzərdə tutulursa, bu halda qiymətləndirmə sərbəstliyi məhduddur. Lakin əgər belə müştərək razılaşma mövcud deyilsə, qiymətləndirmə sərbəstliyi daha geniş olur (xüsusilə ictimai əxlaq məsələlərində qiymətləndirmə sərbəstliyi daha genişdir). Əgər hansısa məsələnin dövlətin qiymətləndirmə sərbəstliyinə aid olduğu müəyyən edilərsə, pozuntu müəyyən edilmir.
- Balanslaşdırılmalı olan ictimai və özəl maraqlara dair məsələlərdə səmərəli prosessual təminatların olması nəzərə alınmalıdır. Prosessual təminatlar o halda səmərəli olur ki, dövlət orqanlarının qərar və hərəkətlərinə (hərəkətsizliyinə) qarşı məhkəmə yaxud məhkəmə tipli müstəqil qurumlarda öz arqumentlərini təqdim etməklə qoruna bilmək imkanı mövcud olsun. Eləcə də işə baxılmasının icraatı aydın şəkildə aparılmış olsun.

Bundan əlavə, AİHM-in *Ahmet Yıldırım Türkiyəyə qarşı (3111/10)*[95] və *Çingiz və başqaları Türkiyəyə qarşı (48226/10 və 14027/11)*[96] işlərində bütövlükdə saytların bloklanmasının mütənasib tədbir olmadığını müəyyən edib. Hazırkı iş üzrə saytların bütövlükdə bloklanması Məhkəmənin bu presedent hüququna ziddir.

Həmçinin internet saytların bloklanması ciddi prosessual təminatlara cavab verməlidir. Yuxarıda qeyd edilən işlərdə AİHM həmçinin müəyyən edib ki, internet saytlatının bloklanmasına dair qanunvericilik hüquqi müəyyənlik və öncədəngörüləbilənlik tələblərinə cavab vermədiyi, özbaşına xarakter daşıdığı və lazımi hüquqi təminatlara malik olmadığı hallarda pozuntu ilə nəticələnir. Hazırkı baxılan iş üzrə mövcud qanunvericilik də bu baxımdan bənzər xarakterdədir.

2.1.2 Onlayn kontent tənzimləməsi

İfadə azadlığının ümumi təminatları həmçinin onlayn məzmunun tənzimlənməsinə şamil edilir. Lakin onlayn məzmunun özünəməxsus xüsusi aspektləri də mövcuddur.

AİHK-nın 10-cu maddənin 1-ci bəndi ilə qorunan ifadə azadlığı demokratik cəmiyyətin mühüm əsasını təşkil edir. Regional səviyyədə ifadə azadlığı AİHK-nın 10-cu maddəsi ilə qorunur. Maddənin birinci bəndində qeyd olunur ki, *'Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları*

[95] Ahmet Yildirim v. Turkey, 3111/10: https://hudoc.echr.coe.int/fre?i=002-7328.
[96] Cengiz and others v. Turkey: https://hudoc.echr.coe.int/eng?i=001-159188.

tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildi'.

Məhdudiyyətlərə gəldikdə isə AİHK-nın 10-cu maddəsinə əsasən *'iğtişaşların və ya cinayətin qarşısının alınması, məxfi şəkildə alınan məlumatların açıqlanmasının qarşısının alınması və hakimlərin səlahiyyətlərinin və qərəzsizliyinin qorunması'* halında tətbiq edilər bilər. Digər müəyyən edilmiş məhdudiyyətlərə gəldikdə isə ifadə azadlığına dair məhdudiyyətləri tətbiq edərkən dövlət orqanları AİHM-nin müvafiq presedent hüququnun inkişaf etdirdiyi "üç hissəli test"-ə əməl etməlidir.[97]

Delfi AS v. Estoniya işində AİHM qeyd edib ki, *'İnternet ictimaiyyətin xəbərlərə çıxış imkanlarının genişləndirilməsində və ümumilikdə məlumatın yayılmasının asanlaşdırılmasında mühüm rol oynayır'.*

İnternet informasiya vasitəsi kimi çap mətbuatından fərqlənir və onun Konvensiyanın 8-ci Maddəsi ilə qorunan hüquqlar üçün yaratdığı risk, şübhəsiz ki, daha yüksəkdir.[98] Digər bir qərarında isə AİHM vurğulayır ki, '*Düzdür, İnternet informasiya və kommunikasiya vasitəsidir, xüsusən də informasiyanın saxlanması və ötürülməsi imkanlarına görə çap mediasından xüsusilə fərqlənir. Dünyada milyardlarla istifadəçiyə xidmət göstərən elektron şəbəkə eyni qaydalara və nəzarətə tabe deyil və potensial olaraq heç vaxt da olmayacaq. İnternetdəki məzmun və kommunikasiyaların insan hüquq və azadlıqlarının, xüsusən də şəxsi həyata hörmət hüququnun həyata keçirilməsinə və istifadəsinə vurduğu zərərin riski, şübhəsiz ki, mətbuatın verdiyi riskdən daha yüksəkdir."*[99]

İnternet tənzimləmələri ilə əlaqədar yumşaq hüquq aşağıdakılardan ibarətdir:

İnternetin və onun istifadəçilərinin həddindən artıq yüksək şəkildə böyüməsi ilə daha geniş miqyasda məlumatı əldə etmək asanlaşdı, lakin onlayn məzmuna nəzarət mexanizmi problemli olaraq qalır. Ölkələrin mədəni, tarixi və əxlaqi adətləri ilə bağlı "zərərli" və ya qeyri-qanuni məzmunla bağlı fərqli yanaşmalara malik olan onlayn məzmunun tənzimlənməsi ölkədən ölkəyə fərqlidir.

Beynəlxalq hüquqi müstəvidə ilk dəfə 2011-ci ildə BMT-nin Xüsusi Məruzəçisi onlayn məzmunun tənzimlənməsinin üç formasını təqdim etdi:

- "beynəlxalq hüquqa əsasən cinayət məsuliyyətinə cəlb oluna bilən ifadə;
- cinayət məsuliyyətinə cəlb edilməyən, lakin məhdudiyyətə və mülki iddiaya haqq qazandıra bilən ifadə; və

[97] AİHK-nın 10 (2)-cu maddəsinin tələbinə görə dövlətin ifadə azadlığına tətbiq etdiyi məhdudiyyətlər qanunla nəzərdə tutulmalı, sadalanan legitim məqsədlərindən birini (milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai təhlükəsizlik maraqları, iğtişaş və cinayətlərin qarşısının alınması, sağlamlıq və ya mənəviyyatın qorunması, başqalarının nüfuzunun və ya hüquqlarının qorunması, məxfi hesab edilən məlumatların açıqlanmasının qarşısının alması və məhkəmə hakimiyyətinin səlahiyyətlərini, eləcə də qərəzsizliyinin qorunmasını) müdafiə etməli və nəhayət, sadalanan legitim məqsədlərdən birini müdafiə etməkdən ötrü demokratik cəmiyyət anlayışı kontekstində zəruri olmalıdır. Daha konkret desək, dövlət orqanları tərəfindən qoyulan məhdudiyyətlər vətəndaşlara öz davranışlarını idarə etməyə imkan verəcək qədər aydın və dəqiq olmalıdır. ECtHR, Perinçek v Switzerland, App.No27510/08, 15.10.2015, para 131;
Müdaxilə 'təxirəsalınmaz sosial tələbə' uyğun gəlməlidir (ECtHR, The Sunday Times v UK, App.No6538/74, 26.04.1979, para 59) və mütənasiblik tələbi ilə bağlı minimum məhdudlaşdırıcı tədbir tətbiq edilməlidir (ECtHR, Tagiyev and Huseynov v Azerbaijan, App.No 13274/08, 05.03.2020, para 49).

[98] Węgrzynowski and Smolczewski v. Poland, Appş no. 33846/07, 16 July 2013, para 98

[99] Editorial Board of Pravoye Delo and Shtekel v. Ukraine, App.no. 33014/05,05.05.2011, para 63

- cinayət və ya mülki sanksiyalara səbəb olmayan, lakin yenə də tolerantlıq, mədənilik və başqalarına hörmət baxımından narahatlıq doğuran ifadə.”.[100]

Bəzi dövlətlər senzura və beynəlxalq standartlara zidd olan məzmunun bloklanması, filtrlənməsi və ya silinməsi kimi ayrı-seçkilik üsullarından istifadə etməklə, xüsusən də müvafiq milli qanunvericilik olmadıqda və ya daha geniş şərh üçün açıq olduqda, mübahisəli məzmunla mübarizə aparmaq üçün tez-tez məhdudlaşdırıcı tədbirlərdən istifadə edirlər. Qeyd edək ki, internet məkanında məzmunun bloklanması, filtrlənməsi və ya silinməsi AİHK-nın 10-cu maddəsinin müdaxilə meyarlarına cavab verməlidir.[101]

2.2. Onlayn kontent tənzimlənməsinə dair milli hüquq

Azərbaycanda onlayn kontent tənzimləməsinə dair milli hüquq (normativ hüquqi aktlar) əsasən “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanundan,[102] həmin Qanunun prosessual hüquqi tətbiqi əsası olan MPM-dən[103] və qismən yeni qəbul edilmiş “Media haqqında” Qanundan[104] ibarətdir.

2.2.1 Qanunvericiliyin tarixçəsi

Azərbaycan ifadə azadlığının vəziyyəti baxımından ağır vəziyyətdə olan ölkədir. Lakin son dövrlərə qədər internetə bilavasitə bloklamaqla senzura tətbiq edilmirdi.[105] Xüsusilə, 2015-2016-cı illərdən başlayaraq hakimiyyətdə olan siyasi partiyanın təmsilçiləri saytların bloklanmasını yaxud digər formada məhdudlaşdırılmasını təklif edən çağırışlar etməyə başladılar.

Bunun nəticəsində 15 fevral 2017-ci ildə “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanuna dəyişikliklər Milli Məclisinin İnsan Hüquqları Komitəsində müzakirəyə çıxarıldı və qəbul edildi.[106]

Bunun ardınca, sürətli şəkildə, 07 mart 2017-ci ildə həmin qanuna dəyişiklik I oxunuşa təqdim edilir və qəbul edilir. Həmin ilin 10 martda qanun layihəsi Milli Məclisinin plenar iclasında II və III oxunuşda qəbul edildi. 19 mart 2017-ci ildə isə Qanuna dəyişikliklər Prezidentin Fərmanından sonra (16 mart 2017) dərc edilməklə qüvvəyə mindi.

07 aprel 2017-ci ildə həmin Qanun dəyişikliyinin məhkəmə icraatının həyata keçirilməsi üçün MPM-nə dəyişikliklər edilməsi barədə Qanun qəbul edildi və Məcəlləyə 40-6-cı Fəsil əlavə edildi. Bununla bağlı, Prezidentin Fərman verməsi (18 aprel 2017) və 20 aprel 2017-ci ildə Qanunun dərc edilməsi ilə qüvvəyə mindi.

Milli Məclisinin həmin tarixli iclaslarının əks edildiyi mətbuat materiallarından görünür ki, qanun layihəsinin lazımi müzakirəsi aparılmayıb və demək olar ki, müzakirəsiz qəbul edilib.

---

[100] Report of the UN Special Rapporteur on the promotion and protection of the right to freedom of opinion and expression, 2011, available at: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N11/449/78/PDF/N1144978.pdf?OpenElement
[101] ECtHR, Ahmet Yildirim v. Turkey, App.No 3111/10, 18.03.2013, paras 61,62
[102] https://e-qanun.az/framework/3525.
[103] https://www.e-qanun.az/framework/46945.
[104] https://e-qanun.az/framework/49124.
[105] Baxmayaraq ki, ayrı-ayrı hallarda əvvələr də bir yaxud bir neçə günlük saytların bloklanması baş vermişdi.
[106] Milli Məclisin İnsan hüquqları Komitəsinin Gündəliyi: http://meclis.gov.az/?/az/content/248

Rəsmi məlumatlardan görünür ki, 10 martında iclasda həmçinin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirinin (indiki Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) müavini Elmir Vəlizadə iştirak edib və Vikipediyanın Azərbaycan barəsində təhrif edilmiş məlumatlar yaydığını bildirib.[107]

2.2.2 Qanunvericiliyin məzmunu

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanununa dəyişikliklər[108] və MPM-yə əlavə edilən 40-6-cı Fəsil internet tənzimləməsi ilə bağlı aşağıdakı məsələləri müəyyən edirdi (bu dəyişikliklərin hüquqi təhlili üçün araşdırmanın III Fəslinə baxın):

a) "az" domeninin istifadə qaydalarının müəyyən edilməsi səlahiyyəti mərkəzi icra hakimiyyətinə verildi (Qanunun 13-1-ci maddəsi);
b) İnternet saytının və domen adının sahibi haqqında məlumatların internet saytında yerləşdirilməsi öhdəliyi müəyyən edildi (Qanunun 13-2.1-ci maddəsi);
c) Yayılması qadağan edilən informasiyaların siyahısı müəyyən edildi. Həmin siyahı natamamdır. Digər qanunlarla genişləndirilə bilər (Qanunun 13-2.2-ci maddəsi);
d) Yayılması qadağan edilən informasiyanın silinməsi öhdəliyi host provayderin və internet saytının və domen adının sahibinin üzərinə qoyuldu (Qanunun 13-2.2-ci maddəsi);
e) Yayılması qadağan edilən informasiyalar barədə şikayət mexanizmi müəyyən edildi. İstənilən fiziki və hüquqi şəxs, eləcə də dövlət qurumları bu barədə məlumatlar verə bilərlər (Qanunun 13-2.2-ci maddəsi);
f) Yayılması qadağan edilən informasiya ehtiyatlarına nəzarət Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə həvalə edildi (Qanunun 13-2-ci maddəsi);
g) Nazirlik yayılması qadağan edilən informasiya aşkar etdikdə bu barədə host provayder və domen adının sahibini xəbərdar edir. Əgər həmin qurumlar 8 saat ərzində məlumatı silməsələr Nazirlik bu halda internet saytının bütövlükdə bloklanması üçün yerləşdiyi yerin rayon (şəhər) məhkəməsinə müraciət edir (Qanunun 13-2-ci maddəsi);
h) Əgər Nazirlik yayılmış məlumata görə saytın bloklanmasının təxirəsalınmaz əsaslarının olduğunu hesab edərsə, bu halda saytın bloklanması barədə müvəqqəti qərar qəbul edə bilər. Bundan sonra, saytın bloklanması tələbi ilə məhkəməyə müraciət edir;
i) Rayon (şəhər) məhkəməsi saytın bloklanması barədə ərizəyə ərizənin verildiyi gündən 5 gün ərzində baxır və ərizənin təmin edilməsi və ya rədd edilməsi barədə

[107] Milli Məclisinin 07 mart və 10 mart 2017-ci il tarixli iclaslarının stenoqramları hələ ictimaiyyətə təqdim edilməyib. Lakin rəsmi xəbər agentlədiklərində dərc edilmiş məlumatlar bunlardır: 1) APA. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun layihəsinə dəyişiklik edilib: http://apa.az/xeber-az/media-xeber/informasiya-informasiyalasdirma-ve-informasiyanin-muhafizesi-haqqinda-qanun-layihesine-deyisiklik-edilib.html; 2) AZTV. Milli Məclisin növbəti plenar iclası keçirilib: http://www.aztv.az/readnews.php?lang=az&id=28642

[108] Qanunun məzmunu: http://e-qanun.az/framework/3525; MPM-in 40-6-cı Fəslinin məzmunu: http://e-qanun.az/framework/35279

qətnamə qəbul edir. Qətnamə dərhal qüvvəyə minir və ondan şikayət verilməsi qətnamənin icrasının dayandırmır (Qanunun 13-2-ci maddəsi);

j) Qətnamədən Mülki Prosessual Məcəlləyə uyğun olaraq apellyasiya və kassasiya şikayəti verilə bilər (Mülki Prosessual Məcəllənin 40-6-cı fəsli);

k) Məhkəmə qərarından sonra həmin sayt "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi internet saytlarının Siyahısı"na daxil edilir. Bu Siyahının idarə edilməsi qaydası Nazirlər Kabineti tərəfindən müəyyən ediləcək (Qanunun 13-3-cü maddəsi);

l) Qanuna uyğun olaraq saytların daimi əsaslarla və tamlıqla bloklanması nəzərdə tutulur. Siyahıdan çıxarılma icra hakimiyyəti qurumlarının subyektiv mülahizəsindən asılı olacaq.

Bundan başqa yeni qəbul edilən "Media haqqında" qanun və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunla yayımlanmasına məhdudiyyət yaxud yayımlanması məhdudlaşdıran informasiyaların siyahısını göstərir. Bu iki qanunvericiliyin konsolidə yanaşması nümayiş etdirir ki, aşağıdakı məhdudlaşdırılan informasiya növləri var (tənsifləşdirməni aşağıdakı kimi aparmaq olar):

(1) Milli təhlükəsizliklə əlaqəli məhdudlaşdırılan informasiyalar[109],
(2) nifrət nitqi ilə əlaqəli məhdudlaşdırılan informasiyalar[110],
(3) ictimai qayda ilə əlaqəli məhdudlaşdırılan informasiyalar[111],
(4) Reputasiya və şəxsi həyat hüququnun pozuntusu ilə əlaqəli məhdudlaşdırılan informasiyalar[112] və
(5) Əqli mülkiyyət hüququnun pozuntusu ilə əlaqədar informasiya.[113]

Qeyd edək ki, oxşar məhdudiyyətlər "Media haqqında" Qanunun 14 və 15-ci maddələrində də ehtiva edilir. Bunu da əlavə etmək lazımdır ki, yuxarıda qeyd edilən informasiyalar *numerus clausus* əsasla məhdudlaşdırılmır və siyahı sair qanunvericiliklə genişləndirilə bilər.

Azərbaycan qanunvericiliyinin onlayn məzmun tənzimləməsinin tətbiqinin praktikada ifadə azadlığı ilə əlaqədar təhlili aşağıdakı çatışmazlıqları nümayiş etdirir:

---

[109] a) Terrorçuluqla əlaqədar məhdudlaşdırılan informasiya - terrorçuluğun təbliği və maliyyələşdirilməsi, terrorçuluğun həyata keçirilməsinin üsul və vasitələri, terrorçuluq məqsədi ilə təlim təşkil etmə və ya keçirmə barədə məlumatlar, habelə terrorçuluğa açıq çağırışlar;
b) Zorakılıqla əlaqədar məhdudlaşdırılan informasiya - zorakılığın və dini ekstremizmin təbliğinə dair məlumatlar, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkil edilməsinə yönələn açıq çağırışlar;
c) Dövlət sirri təşkil edən məlumatlar.

[110] milli, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına yönələn açıq çağırışlar.

[111] a) Odlu silahların təbliği ilə əlaqədar məlumatlar; b) Narkotik vasitələrin təbliği ilə əlaqədar məlumatlar; c) İctimai təhlükəli nəticələrin baş verməsinə səbəb olan yalan informasiyalar; d) İntihar təbliğatçılığı; e) Qumar təbliğatçılığı; f) Pornoqrafiya təbliğatçılığı.

[112] Təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar.

[113] Əqli mülkiyyət hüquqlarını pozan məlumatlar.

Yerli qanunvericilik qanunun keyfiyyəti prinsipinə cavab vermir. Bu o mənaya gəlir ki, yerli qanunvericiliklə ifadə edilən bu anlayışlar qeyri-müəyyən şəkildə təqdim edilirr. Bu isə müvafiq icra hakimiyyəti orqanlarına həmin məhdudiyyətlərdən sui-istifadəsinə şərait yaradır. Bundan əlavə, yerli qanunvericiliyin təmin etdiyi prosessual təminatlar kifayət səviyyədə deyil. Bu halı aradan qaldırmaq üçün prosessual təminatlar daha aydın şəkildə göstərilməlidir. Yerli qanunvericilik BİHH öhdəliyinin əsas tələbi olan demokratik cəmiyyətdə zərurilik tələbinə cavab vermir. Bu məqsədlə yerli qanunvericilik AİHK standartları ilə daha çox uyğunlaşdırılmalıdır.

Onlayn məzmun tənzimləməsinə dair BİHH standartları ifadə azadlığının ənənəvi təminatlarına əsaslanır. Bu təminatlar arasında əsas yerləri hüququn aliliyi (qanunun keyfiyyəti), zərurilik (demokratik cəmiyyətdə zərurilik, təxirəsalınmaz sosial tələbat) və prosessual təminatlar tutur. Bu təminatlara həm qanunvericilik, həm də praktik səviyyədə riayət edilməsi onlayn ifadə azadlığının effektiv realizəsinə imkan yaradır.

Azərbaycan qanunvericiliyinin təhlili nümayiş etdirir ki, bu qanunvericilik BİHH standartlarına dair əsas təminatlara müvafiq deyil və bu sahədə bir çox defisitlər var. Bu defisitlərin aradan qaldırılması prinsip etibarilə mümkündür. Əsas məsələ bu sahədə Azərbaycan Respublikası Hökumətinin siyasi iradəsinin olmasıdır.

Azərbaycan qanunvericiliyinin onlayn məzmun tənzimləməsinin hüquqi çərçivələrinin müvafiq beynəlxalq standartlar ilə müqayisəli təsvirinə əlavə olaraq növbəti fəsil sözügedən qanunvericiliyin tətbiqinin əhatəsi və nəticələrinin qiymətləndirilməsinə həsr edilir.

Fəsil III. Azərbaycanda internet medianın və onlayn ifadə azadlığının vəziyyəti

Giriş

Bu araşdırmanın birinci və ikinci fəsillərində ətraflı şəkildə Azərbaycan milli qanunvericiliyin və Azərbaycanın tərəf olduğu müvafiq beynəlxalq insan hüquqları sənədlərində internetin bir sıra azadlıqların reallaşdırılmasının əhəmiyyətli rolundan bəhs edildi. Həmin fəsillərdə milli qanunvericilikdə internetə çıxış və internetdə informasiya məzmununun tənzimlənməsinin çərçivələrinin beynəlxalq standartlar işığında nəzərdən keçirildi. Həmin təhlillərdən göründüyü kimi Azərbaycan Konstitusiyasında istər offline, istərsə də onlayn məkanda ifadə azadlığına konstitusion hüquqi təminat və əsasların[114] mövcudluğuna baxmayaraq, internetdə ifadə azadlığı dövlət tərəfindən məhdudlaşdırıcı qanunvericilikdən və qeyri qanuni təzyiq vasitələrindən istifadə etməklə tez-tez məhdudlaşdırılır.[115]

Araşdırmanın yuxarıdaki ikinci fəslində də geniş təsvir edildiyi kimi Azərbaycan qanunvericiliyi internetdə ifadə azadlığını məhdudlaşdıran bir sıra müddəaları ehtiva edir. Bunlardan bəziləri – "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizə haqqında" Qanun kimi- onlayn nitqi senzura etmək üçün xüsusi olaraq hazırlanmış qanunlardır.

Azərbaycan təcrübəsi göstərir ki, internetdə ifadə azadlığı təkcə özbaşına və qeyri qanuni təzyiqlər ilə məhdudlaşdırılmır, o həm də praktikada tez-tez məhdudlaşdırıcı qanunlara, qeyri-legitim əsaslara, qanunlarda geniş şərhə və sui-istifadəyə açıq müddəalara istinad edilərək inzibati xətalar və cinayət məcəllələrində müəyyən edilmiş ağır cəzalarla məhdudlaşdırılır. Bu qanunların bir çox müddəaları Azərbaycan Konstitusiyasına, həmçinin Azərbaycanın tərəf olduğu və milli qanunvericiliklə müqayisədə üstün hüquqi qüvvəyə malik olan[116] MSHBP-ın və AİHK-nin ifadə azadlığı ilə bağlı standartlarına uyğun gəlmir.

Araşdırmalar göstərir ki, 2010-cu ildən Azərbaycanda internetdən istifadə səviyyəsinin ildən-ilə artmasına[117] paralel olaraq dövlət internet məkanına nəzarəti və tənzimləməni genişləndirən yeni qanun dəyişikləri ilə internet azadlıqlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırıb.

---

[114] Konstitusiyanın ifadə azadlığına ən çox aidiyyəti olan müddəaları hesab olunan 47-ci (fikir və söz azadlığı), 50-ci (məlumat azadlığı) və 51 (bədii söz azadlığı), habelə 32-ci maddə (şəxsi toxunulmazlıq hüququ)

[115] "Azerbaijan Internet Watch" təşkilatının **"Azərbaycanda internet azadlığının vəziyyəti, hüquqi icmal"** adlı hesabatı (29 iyul 2021). Hesabat dövründə Azərbaycanda parlament mövcud milli qanunvericiliyə bir sıra dəyişiklər qəbul edərək, əlavə məhdudiyyətlər tətbiq edib və internet üzərində dövlət nəzarətini artırıb. Eyni zamanda, müvafiq orqanlar ictimai fəal və siyasətçilərin onlara qarşı internet məkanda kiber hücumlar və qısnama halları ilə bağlı şikayətləri ilə bağlı səmərəli araşdırmalar aparmayıblar. https://www.az-netwatch.org/news/the-state-of-internet-freedom-in-azerbaijan-a-legal-overview/

[116] Maddə 148. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar
II. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.
Maddə 151. Beynəlxalq aktların hüquqi qüvvəsi
Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

[117] 2017-2018-ci illərdə Azərbaycan internet istifadəçilərinin sayına görə digər MDB ölkələrini geridə qoyaraq dünyanın 137 ölkəsi arasında 34-cü yerdə qərarlaşıb. https://www.adb.org/sites/default/files/institutional-document/484586/aze-digital-development-overview.pdf

Yerli[118] və beynəlxalq[119] insan hüquqları təşkilatları son illəri əhatə edən hesabatlarında Azərbaycanda internet azadlıqları, xüsusi ilə internetdə ifadə və media azadlıqları ilə bağlı vəziyyətin pisləşdiyini vurğulayır.

3.1.2. Milli qanunvericiliyin tətbiqi: ifadə azadlığı standartlarına əsas uyğunsuzluq halları

Diffamasiyaya görə cinayət məsuliyyəti

Təhlillər müəyyən edir ki, internetdə ifadə azadlığına müdaxilələrə imkan verən milli qanunvericilik və onun tətbiqi Azərbaycanın ratifikasiya etdiyi beynəlalq insan hüquqları sənədlərinin ifadə azadlığı ilə bağlı standartlarına cavab vermir. Milli qanunvericiliyin bu sahədə ən başlıca çatışmazlığı ilə bağlı hələ də təhqir və böhtana görə cinayət məsuliyyətinin qalmaqda davam etməsini vurğulamaq olar. Belə ki, Cinayət Məcəlləsində (bundan ssonra CM) təkcə defamasiyaya (təhqir və böhtan) görə 4 ayrı-ayrı müddəa mövcuddur. Bunlar CM-in 147-ci (böhtan), 148-ci (təhqir), 148-1-ci (internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etm) və 323-cü (Azərbaycan dövlətinin başçısının — Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma) maddələridir. Qeyd olunan hər bir müddəanın sanksiyasında həbs cəzaları nəzərdə tutulur.

Azərbaycan yerli və beynəlxalq insan hüquqları təşkilatlarının çoxsaylı tövsiyyə və çağırışlarına baxmayaraq, hələ də böhtan və təhqiri dekriminallaşdırmayıb. Avropa Şurası Parlament Assambleyası (AŞPA) diffamasiyanın dekriminallaşdırılmasına dair 1577 saylı qətnaməsində[120] (2007) və müvafiq olaraq 1814 saylı Tövsiyəsində (2007)[121] diffamasiyanın dekriminallaşdırılmalı olduğunu vurğulayır. Bu qətnamələrdə Avropa Şurasına üzv dövlətlər diffamasiyaya görə həbs cəzalarını təxirə salınmadan ləğv etməyə, diffamasiyaya görə cinayət təqibindən sui-istifadənin olmamasına təminat verməyə çağırılır.

CM-də defamasiyaya görə cəzalarla bərabər başqa ifadələrə görə də cinayət məsuliyyəti nəzərdə tutulur. Bura terrorçuluğa açıq çağırışlar və bu tipli materialları yayma (maddə 214-2), dövlət əleyhinə açıq çağırışlar (maddə 281), hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə

---

[118] Yerli insan hüquqları təşkilatı Demokratik Təşəbbüslər İnstitutunun (IDI) 2021-ci ili əhatə edən "Azərbaycanda İfadə Azadlığının Vəziyyətinə dair" araşdırmasında Azərbaycanda ifadə azadlığının vəziyyətində əvvəlki illərə nisbətən irəliləyiş əldə olunmadığı və praktiki səviyyədə dövlət qurumlarının sui-istifadə edərək ifadə azadlığına legitim olmayan müdaxilələr etməsinə dair faktlar sadalanır. Hesabatda dövlət qurumlarının səlahiyyətlərindən sui-istifadə edərək ifadə azadlığına legitim olmayan müdaxilələr etdiyi, bəzən də cəzalandırma səlahiyyətlərini şəxsin ifadə azadlığını məhdudlaşdırmaq üçün əsassız təzyiq vasitəsi kimi istifadəsi halları qeyd olunur. Hesabatda deyilir ki, 2021 -ci il ərzində 6 nəfər paylaşımlarına və fikirlərinə görə cinayət məsuliyyətinə cəlb edilib." Demokratik Təşəbbüslər İnstitutunun Azərbaycanda İfadə Azadlığının Vəziyyətinə dair Araşdırma Sənədi, 9 Sentyabr 2022, https://www.idi-aze.org/report/136

[119] Freedom House təşkilatının "Şəbəkədə azadlıq-2022" hesabatı son illərdə Azərbaycanda internet azadlığının bir çox aspektləri, o cümlədən İKT-yə nəzarət, internetə çıxış və internetdə yayılan informasiyanın tənzimlənməsi, tənqidlərə görə hüquqi təzyiqlər və başqa istifadəçi hüquqları (fərdi məlumatların qorunması, informasiyaya çıxış) ilə bağlı vəziyyətin pisləşdiyi qeyd olunur. Freedom House təşkilatının "Şəbəkədə azadlıq-2022" hesabatı, https://freedomhouse.org/country/azerbaijan/freedom-net/2022

[120] Qətnamə 1577 (2007) "Diffamasiyanın dekriminallaşdırılmasına doğru" (Resolution 1577 (2007), Towards decriminalisation of defamation), https://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17588&lang=en

[121] Tövsiyə 1814 (2007), "Diffamasiyanın dekriminallaşdırılmasına doğru" (Recommendation 1814 (2007), Towards decriminalisation of defamation), http://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17587&lang=en

çağırışlar etmə (maddə 220.2), milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması kütləvi informasiya vasitələri ilə törədildikdə (maddə 283) kimi müddəaları aid etmək olar.

Azərbaycanın beynəlxalq hüquqi sənədlərin tələblərinə uyğun olmayan milli qanunvericiliyinin tətbiqi nəticəsində ifadə azadlığını pozması AİHM qərarlarında ortaya çıxır. Azərbaycanda fəaliyyət göstərən Demokratik Təşəbbüslər İnstitutunun "Azərbaycanda İfadə Azadlığının Vəziyyəti" (2021) barədə araşdırmasına görə təkcə 2021-ci ildə AİHM tərəfindən Azərbaycana qarşı qəbul edilmiş 6 qərarda AİHK-nın 10-cu maddəsinin (ifadə azadlığı) pozuntusu tanınıb.[122]

Avropa Şurası Nazirlər Komitəsi ifadə azadlığı hüququnun pozuntusu ilə bağlı Azərbaycana qarşı çıxarılan bir sıra qərarların icrasına nəzarətini isə bir neçə işlərin toplandığı qrup işi çərçivəsində uzun illərdir ki, davam etdirir. Nazirlər Komitəsi 2010-cu ilin dekabr ayından etibarən *Mahmudov və Ağazadə* Qrupunda mütəmadi olaraq bu qrupa daxil olan məhkəmə qərarlarının icrasını nəzarətdə saxlayıb və bu müddət ərzində dörd aralıq qətnamə qəbul edib.[123] Komitə hesab edib ki, bu qərarların icrası üçün Azərbaycan dövləti tərəfindən hələ də üç əsas tədbir həyata keçirilməlidir:

(i) cinayət xarakterli diffamasiya ilə bağlı olan maddələrin, yəni diffamasiya (147-ci maddə) və təhqirə (148-ci maddə) görə uzunmüddətli həbs cəzalarını aradan qaldırmaq üçün Cinayət Məcəlləsinə dəyişikliklər;

(ii) ifadə azadlığını məhdudlaşdırmaq üçün Cinayət Məcəlləsinin terrorizm, zorakılığa çağırış, irqi və ya dini nifrət və s. kimi digər müddəalarının özbaşına tətbiq təcrübəsinin qarşısını almağa yönəlmiş tədbirlər;

(iii) Prokurorluq və icra hakimiyyəti tərəfindən təqsirsizlik prezumpsiyası hüququnun pozulmasının qarşısını almaq məqsədi daşıyan tədbirlər.

Azərbaycan hökuməti tərəfindən 2 sentyabr 2022-ci il tarixində Nazirlər Komitəsinə təqdim edilmiş fəaliyyət planına[124] əsasən 2020-ci il ərzində təhqirə (maddə 147) görə Azərbaycanda 15 nəfər məhkum edilmişdir. Onlardan bir nəfəri azadlıqdan məhrum etmə, bir nəfər azadlığın məhdudlaşdırılması, altı nəfər islah işləri, bir nəfər ictimai iş, onbir nəfər isə cərimə cəzalarına məhkum edilib. Təqdim edilmiş məlumata əsasən 2020-ci il tarixində təhqirə görə (maddə 148) dörd nəfər məhkum edilmişdir. Onlardan iki nəfər azadlıqdan məhrum etmə, iki nəfər isə islah işləri ilə cəzalandırılıb.

Bundan başqa hökümətin təqdim fəaliyyət planında milli qanunvericiliyin internet məkanda ifadə azadlığı ilə bağlı standartlara uyğun tətbiqi ilə bağlı Baş Prokurorluq tərəfindən "Azərbaycan Respublikası Prokurorluğunun sosial media siyasəti haqqında Təlimat"dan (Baş prokurorun 15/23 nömrəli əmri ilə 20.12.2021-ci ildə təsdiq edilmiş) bəhs edilsə də, Baş

[122] 1. Əvəz Zeynalov Azərbaycana qarşı; Ərizə №.37816/12 25260/14; 22/04/2021; 2.Həsənov Azərbaycana qarşı; Ərizə №.52584/09; 08/07/2021; 3. Məmmədov və Abbasov Azərbaycana qarşı; Ərizə №.1172/12; 08/07/2021; 4. Mahmudov və Ağazadə Azərbaycana qarşı (2); Ərizə №.28083/08; 22/07/2021; 5. Həsənov və Məcidli Azərbaycana qarşı; Ərizə №.9626/14 9717/14; 07/10/2021; 6. Rövşən Hacıyev Azərbaycana qarşı; Ərizə №.19925/12 47532/13; 09/12/2021.

[123] CM/ResDH(2013)199, CM/ResDH(2014)183, CM/ResDH(2015)250 və CM/ ResDH(2016)145). 1419-cu iclas, 30 noyabr - 2 dekabr 2021 (DH). İnsan hüquqları. H46-3 Mahmudov və Ağazadə qrupu Azərbaycana qarşı (Ərizə № 35877/04). Avropa Məhkəməsinin qərarlarının icrasına nəzarət,https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=0900001680a488d7

[124] (DH) - Fəaliyyət Planı (02/09/2022) - MAHMUDOV VƏ AĞAZADƏ Azərbaycana qarşı iş üzrə Azərbaycandan məlumat (Ərizə № 35877/04), https://hudoc.exec.coe.int/eng?i=DH-DD(2022)924E

Prokurorluğun saytında və ya digər qanunvericiliyin rəsmi yayımlandığı mənbələrdə həmin sənədi əldə etmək mümkün olmayıb.

İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunun tətbiqi təcrübəsi

Azərbaycan qanunvericiliyi internetdə ifadə edilən (yayılan, paylaşılan) informasiyanın məzmununa dair məsələləri əsasən iki qanunla tənzimlənir. Bunlar 1998-ci ildə qəbul edilmiş lakin 2017-ci ildə əsaslı dəyişiklikdən sonra internetə də şamil edilən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunu[125] və 2021-ci ildə qəbul edilmiş və bir çox məsələlərlə bərabər internet media və jurnalistlərin onlayn fəaliyyətinə də tətbiq edilən "Media haqqında" qanunudur.[126]

Bu qanunlar əsasən inzibati məsuliyyət ilə əhatə olunan internetdə yayılması qadağan edilmiş informasiya ilə bağlı tənzimləmələri əhatə edir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun 2017-ci ildə internetdə nitqin məzmunun tənzimlənməsinə dair bir sıra məhdudlaşdırıcı düzəlişlərlə yenilənib. Belə ki, 10 mart 2017-ci ildə qanuna əlavə edilən yeni "İnternet informasiya ehtiyatları" adlı 3-1-ci fəsil ilə qanuna internetdə informasiyanın yayımlanmasını qadağan etməyə imkan verən çox sayda tələblər müəyyən edilib.[127] Bu tələblərə qanuna edilən sonrakı dəyişikliklər ilə ildən ilə daha sərtləşdirilib və qanunun pozulmasına görə məsuliyyətin əhatə dairəsi genişlənib, sanksiyası daha da ağırlaşdırılıb.

Sözügedən qanunda internetdə informasiyanı qadağan edən və bu qadağalara əməl etməməyə görə məsuliyyət yaradan çoxsaylı qeyri-müəyyən müddəalar və tələblər mövcuddur. İnformasiyanın qadağan edilməsinə imkan verən tələblərin bir çoxu sui-istifadəyə açıq olmaqla ifadə azadlığı standartları ilə bir araya sığmır. Həmin qanunlarda qeyd olunan məhdudlaşdırıcı tələblərin yerinə yetirilməməsinə görə İnzibati Xətalar[128] və Cinayət[129] Məcəllələri müvafiq olaraq inzibati və cinayət məsuliyyəti müəyyən edir.

Qanunun tələblərinə görə internet informasiya ehtiyatının sahibləri, domen adının sahibləri, habelə host və internet provayderlər qanunun 13-2.3-cü maddəsində informasiya üçün müəyyən edilən 13 tələbdən hər hansına əməl edilməməsi halında "qadağan edilmiş informasiya"nın qarşısının alınmasına görə inzibati məsuliyyət daşıyırlar.[130] Qanuna görə (13-3.1) qadağan edilən informasiyanın internet informasiya ehtiyatında yerləşdirilməsi hallarını aşkar edildikdə internet informasiya ehtiyatının və onun domen adının sahibinə və host

[125] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunu, https://e-qanun.az/framework/3525

[126] "Media Haqqında" Azərbaycan Respublikasının qanunu, https://www.e-qanun.az/framework/49124

[127] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının qanunu https://e-qanun.az/framework/35124

[128] İnzibati Xətalar Məcəlləsi, maddə 388-1. İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması, https://e-qanun.az/framework/46960

[129] Cinayət Məcəlləsi,
Maddə 147. Böhtan; Maddə 148. Təhqir; Maddə 148-1. İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə, https://e-qanun.az/framework/46947

[130] Qanunun 13-2.3-cü maddəsi internet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisinə qadağan edilən informasiyanın yerləşdirilməsini qadağan edir.

provayderə yazılı xəbərdarlıq[131] edilir. Qaydaya görə (13-3.2) xəbərdarlıq edildiyi vaxtdan 8 saat ərzində yayılması qanunla qadağan edilən informasiya internet informasiya ehtiyatından götürülmədikdə və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciət məhdudlaşdırılmadıqda, Nazirlik məhkəməyə müraciət edir.[132]

Təcili hallarda[133] tənzimləyici orqanın - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin qərarı əsasında qadağan edilmiş informasiyanın yayıldığı internet informasiya ehtiyatı müvəqqəti məhdudlaşdırıla bilər (məhdudiyyət məhkəmə qərarı olmadan tətbiq edilir). Nazirliyin xəbərdarlığı ilə informasiya 8 saat ərzində silməkdən imtina edən internet informasiya resurslarının sahibləri, domen adlarının sahibləri, host və internet provayderləri mümkün inzibati sanksiyalarla məhkəmə iddiası ilə üzləşə bilirlər.

İnternetdə informasiyanın qadağan olunmuş hesab olunması və buna görə məsuliyyətlə bağlı mövcud qanunvericilik və onun tətbiqi, həmçinin qanundan sui-stifadə halları ifadə azadlığı standartları ilə uyğunlaşmır.

Belə ki, Nazirliyin internet informasiya ehtiyatının və onun domen adının sahibinə və host provayderlərə qadağan edilmiş informasiyaya çıxışın məhdudlaşdırılmasına dair xəbərdarlığına hər hansı etiraz etmək və şikayət etmək hüququ qanunda aydın şəkildə müəyyən edilmir. Çünki İnzibati Xətalar Məcəlləsinə (bundan sonra İXM) görə qadağan edilmiş informasiyanın yayılmasına və qarşısının alınmasına dair xəbərdarlıqda informasiyanın götürülməsi ilə bağlı tədbirlərin yerinə yetirilməməsinə görə ağır sanksiyalar[134] nəzərdə tutulur.

Beləliklə xəbərdarlığa qarşı informasiya ehtiyatının və onun domen adının sahibi və host provayder qadağan edilmiş informasiya hesab edilən məzmuna çıxışın 8 saat ərzində məhdudlaşdırılmasından başqa bu xəbərdarlığın tələblərinə etiraz etmək və onu mübahisələndirməkdən çəkindirir. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunun 13-3.2-ci maddəsi qadağan edilmiş informasiyaya çıxışa məhdudiyyət tətbiq etmək (bloklama) üçün müvafiq icra hakimiyyəti orqanına – Nazirliyə xəbərdarlıq yerinə yetirilmədikdə məhkəməyə müraciət etmək hüququ tanıyır. Qanunun bu mətnindən belə anlaşılır ki, informasiya ehtiyatının və onun domen adının sahibləri və host provayderlər üçün xəbərdarlıqda nəzərdə tutulmuş tədbirlərin məcburiliyi məhkəmə qərarı əldə edildikdən sonra əmələ gəlir. Halbuki xəbərdarlıqda nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməməsi də özü-özlüyündə inzibati məsuliyyətə səbəb ola bilir.

Bu araşdırmanın ikinci fəslində əhatəli şəkildə göstərildiyi kimi kifayət qədər aydınlıq AİHM-in presedent hüququ ilə müəyyən edilmiş *keyfiyyətli qanun standartının* tələblərindən biridir. Bu tələb qanunun həm adekvat şəkildə əlçatan olmasını, həm də nəticələri baxımından fərdlər üçün öncədən görülə bilən olmasını təmin edir. Qanunda qadağan edilmiş məlumatların kateqoriyalarına verilən anlayışların təhlili göstərir ki, bu ifadələr həddindən artıq geniş və

[131] Xəbərdarlığın məzmununda yayılması qanunla qadağan edilən informasiya barədə məlumat, müvafiq informasiyanın internet informasiya ehtiyatından götürülməsinə və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılmasına dair tələb, belə tələb üçün qanunda nəzərdə tutulmuş əsaslar, habelə müvafiq tələbə vaxtında riayət edilməyəcəyi təqdirdə görüləcək tədbirlər barədə məlumat göstərilməlidir.

[132] II Fəsil, 2.2.2 Qanunvericiliyin məzmunu

[133] 13-3.3. Dövlətin və cəmiyyətin qanunla qorunan maraqlarına təhdid yarandığı və ya insanların həyat və sağlamlığı üçün real təhlükə olduğu təxirəsalınmaz hallarda internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciət müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında müvəqqəti olaraq məhdudlaşdırılır.

[134] Fiziki şəxslər beş yüz manatdan min manatadək, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq edilir, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir. İXM, 388-1.1.1, 388-1.1.2.

sərhədsiz təfsirlərə yol verən qeyri-müəyyən ifadələrlə təsvir edilib və aşağıda da göstəriləcək praktiki nümunələrdəki kimi qanunun ixtiyari tətbiqinə yol açmaqla ifadə azadlığı standartları ilə də uzlaşmır.

Məsələn, Qanunun 13-2.3.2-ci maddəsində zorakılığın və dini ekstremizmin təbliği ilə bağlı məlumatlar, milli düşmənçiliyin salınmasına, ərazi bütövlüyünün parçalanmasına və ya kütləvi iğtişaşların təşkil edilməsinə yönəlmiş açıq çağırışlar qadağan olunmuş informasiya kimi təsnif edilir. Qeyd edilməlidir ki, dini ekstremizm və ərazi bütövlüyünün parçalanması, habelə kütləvi iğtişaşların təşkil edilməsinə çağırışlar həm nəzəri olaraq kifayət qədər aydınlıqdan uzaqdır, həm də praktikada tez-tez sui-istifadəyə açıqdır. Belə ki, 2015-ci ilin dekabrında qəbul edilmiş "Dini ekstremizmlə mübarizə haqqında" Qanunun 1.0.1.1-ci maddəsində dini ekstremizm qeyri-müəyyən və problemli ifadələrlə müəyyən edilir. Belə ki, Qanunda "milli ləyaqəti alçaltma", "dini güzəştə getmə", "dini ekstremist materialın hazırlanması, saxlanması və yayılması" kimi əməllər dini ekstremizmə aid edilir. "Milli ləyaqət" və ya "milli ləyaqətin alçaldılması" kimi ifadələr isə qeyri-hüquqi anlayışlardır və daxili qanunlarda müəyyən edilmir və buna görə də onları tətbiq edən səlahiyyətli orqanlar tərəfindən geniş şərhə məruz qalmaqla, onun tətbiqinin özbaşına təfsirinə və tətbiqinə yol açır.[135]

İnternetdə ifadə azadlığına qarşı təzyiqlər

İnternetdə hökümətə, xüsusi ilə prezident və onun ailə üzvlərinə, habelə hüquq mühafizə orqanlarına və onların rəhbər şəxslərinə, o cümlədən regionlarda yerli icra hakimiyyəti orqanlarının rəhbər şəxslərinə qarşı tənqidi fikirlər müxtəlif təzyiq vasitələri ilə susdurulur. Bu təzyiqlər bəzən mövcud repressiv qanunların beynəlxalq insan hüquqları standartlarına və milli hüquqa zidd tətbiqi ilə, ya da qondarma ittihamların irəli sürülməsi ilə həyata keçirilir. Son bir ildə praktikada hüquq mühafizə orqanları və məhkəmələr mövcud repressiv qanunların özbaşına tətbiqi ilə ifadə azadlığına qarşı təzyiqləri daha da artırıblar. Belə ki, 2021-ci ildən başlayaraq, Azərbaycan Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən internetdə qadağan olunmuş məlumatların yayılmasının aşkar edilməsi və ona qarşı cinayət xarakterli olmayan tədbirlərin görülməsi təcrübəsindən geniş istifadə edilir.[136]

Baş Prokurorluq tez-tez sosial şəbəkə istifadəçilərinə, jurnalistlərə, xəbər saytlarının rəhbərlərinə internet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması hallarına görə xəbərdarlıqlar edir. Bəzi hallarda belə xəbərdarlıqlar İXM-nin 388-1.1.1-ci (İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlamaqla məhkəmələrə müracitlə nəticələnir.[137]

[135] Azərbaycanda din və etiqad azadlığı. Milli qanunvericiliyin qiymətləndirilməsi və onun tətbiqi, 2019. Səh. 31-33. IPHR - İnsan Hüquqları üzrə Beynəlxalq Tərəfdaşlıq (Freedom of religion and belief in Azerbaijan. Assessment of national legislation and its application, 2019. Pages 31-33) IPHR - International Partnership for Human Rights, https://www.iphronline.org/wp-content/uploads/2019/12/FoRB.pdf

[136] Azərbaycanda onlayn məzmunu kim tənzimləyir? Hüquqi təhlil, 17 may 2022-ci il (Who regulates content online in Azerbaijan? Legal analysis. May 17, 2022), https://www.az-netwatch.org/news/who-regulates-content-online-in-azerbaijan-legal-analysis/

[137] Yenə orada

24 yanvar 2022-ci ildə Baş Prokuror Bəzi sosial media istifadəçiləri barəsində inzibati icraat başladıb.[138] Baş Prokurorluğun məlumatında qeyd edilir ki, ictimai-siyasi sabitliyin pozulması, insan və vətəndaş hüquq və azadlıqlarının pozulması, həmçinin dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində görülən işlərə kölgə salmaq məqsədi güdən paylaşımların qarşısının alınması üçün bu cür hərəkətlərə yol verən şəxslər Baş prokurorluğa dəvət olunmuş, onların barələrində qanunla nəzərdə tutulmuş tədbirlər görülüb. Rəsmi məlumata görə həmin şəxslər "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunun 13-2.3.9-cu bəndi ilə yayılması qadağan edilən, demokratik təsisatlara qarşı təzyiqlərin göstərilməsi, dövlət orqanlarının fəaliyyətlərinin pozulması, ölkədə idarəetmə səviyyəsinin aşağı düşməsinə yönələn çağırışlar etməyə, həmçinin təhqir və ya böhtan xarakteri daşıyan informasiyanı "Facebook" sosial şəbəkəsində yerləşdirilməsinə görə barəsində İXM-nin 388-1.1.1-ci (internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanılaraq müvafiq məhkəməyə göndərilib.

Lakin qeyd edilməlidir ki, Baş Prokurorluğun istinad etdiyi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunun 13-2.3.9-cu maddəsi yalnız "təhqir və ya böhtan xarakterli, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatları qadağan edilmiş informasiya hesab edir. Həmin qanunda "demokratik təsisatlara təzyiq", "dövlət orqanlarının fəaliyyətini pozmaq", "ölkədə idarəetmənin səviyyəsini aşağı salmağa çağırış" kimi səciyyələndirilə bilən məlumatların qadağan olunmuş məlumatlar kimi səciyyələndirilmir. Bu rəsmi məlumat onu göstərir ki, hüquq mühafizə orqanları və məhkəmələr "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda qadağan olunmuş informasiya kimi səciyyələndirilə bilən məlumatları həddindən artıq geniş təfsir ilə şərh və tətbiq edirlər. Bu isə bu araşdırmanın ikinci fəslində əhatəli şəkildə göstərilən ifadə azadlığının beynəlxalq standartlarının tələblərinə (ifadə azadlığının qanunda göstərilmiş legitim məqsədlərlə məhdudlaşdırılması) cavab vermir.

Baş prokurorluğun internetdə sosial media istifadəçiləri, jurnalistlər və media subyektlərinin yaydığı (paylaşdığı) məlumatlara qarşı artıq sistemli səciyyə daşıyan xəbərdarlıqları və inzibati xəta icraatı təcrübəsi internetdə ifadə azadlığına qanunda nəzərdə tutulmayan özbaşına müdaxilə təşkil edir. İfadə azadlığına qarşı həddən artıq məhdudlaşdırıcı informasiya və media qanunlarının (bu qanunlarda qeyri-müəyyən səbəblərlə onlayn məkanda ifadənin məhdudlaşdırılması üçün geniş əsaslar daxildir) geniş şəkildə tətbiqinə əlavə olaraq, hüquq mühafizə orqanlarının inzibati funksiyasında irəli gələrək söz və media azadlıqlarını məhdudlaşdırması azadlıqlara müdaxilələrə yalnız qanunlarda göstərilmiş legitim əsaslarla yolverilənliyi tələbi ilə də ziddiyət təşkil edir.

Qeyd edilməlidir ki, yerli məhkəmələr qadağan edilmiş informasiyanın məhdudlaşdırılması ilə bağlı qaydaların pozulması iddiası ilə baş prokurorluğun inzibati icraat materialları üzrə inzibati cəza tələblərini sistematik olaraq təmin edirlər. Məhkəmələr tərəfindən belə cəza tədbirlərinin rədd edilməsi ilə bağlı demək olar ki, heç bir məlumatın

[138] Azərbaycan Respublikasının Baş Prokurorluğu: Bəzi sosial media istifadəçiləri barəsində inzibati icraat başlanmışdır. 24.01.2022, https://genprosecutor.gov.az/az/post/4781

olmaması söz azadlığına qarşı daxili qanunvericiliyin özbaşına istifadəsinə qarşı effektiv məhkəmə və hər hansı digər hüquqi müdafiə vasitələri mövcud olmadığını nümayiş etdirir.

Məhdudlaşdırıcı informasiya qanunvericiliyi ilə bərabər bəzi hallarda tənqidçi fəallar internetdəki fikirlərinə görə polis orqanları tərəfindən polisə müqavimət (İXM 535-ci maddə) kimi tez-tez fəallara qarşı istifadə olunan ittihamlarla inzibati həbsə məruz qalırlar. Belə ki, tənqidi fikirlərinə görə polisə tabe olmamaq ittihamı ilə 10 may 2022-ci ildə Azərbaycan Milliyyətçi Demokrat Partiyasının fəalı, bloqer Eyvaz Yahyaoğlu 28 sutka[139], 16 avqust 2022-ci ildə Siyasi fəal Maqsud Əliyev 30 sutka[140] 20 sentyabr 2022-ci ildə isə Demokratiya 1918 Hərəkatının sədri Əhməd Məmmədli 30 sutka[141] inzibati həbsə məruz qalıblar.

3.1.3. Onlayn Media azadlığı

Azərbaycanda media azadlığının vəziyyəti ölkədə insan hüquqlarının digər sahələrində mövcud olan vəziyyətindən fərqlənmir. Nüfuzlu Sərhədsiz Repartyorlar Təşkilatının 180 ölkədə jurnalistlərin və medianın vəziyyətini qiymətləndirən *Ümumdünya Mətbuat Azadlığı İndeksinin* 2022-ci il araşdırmasında Azərbaycan 154-cü yerdə olmaqla dünyada mətbuat azadlığı *çox pis* olaraq qiymətləndirilən 28 ölkə arasındadır.[142]

Freedom House təşkilatının 2022-ci ilin oktyabrında yenilənən illik "Şəbəkədə azadlıq-2022" hesabatı"nın Azərbaycana dair hissəsində qeyd olunur ki, müstəqil və müxalif mediaya qarşı hökumətin uzunmüddətli repressiyaları, onlayn siyasi fəalların həbsləri ilə birlikdə ifadə azadlığı üçün məkan əhəmiyyətli dərəcədə məhdudlaşdırıb və bu yaxınlarda qüvvəyə minmiş yeni "Media haqqında" qanun onlayn mediaya əlavə məhdudiyyətlər qoyur və yeni onlayn media yaratmağa çalışanlar üçün əngəllər yaradır.[143]

Avropa Şurasının Jurnalistikanın Qorunması və Jurnalistlərin Təhlükəsizliyinin Təbliği Platformasının 27 aprel 2022-ci ildə yayımladığı "Gərginlik və münaqişə vaxtı mətbuat azadlığının qorunması" hesabatında[144] Azərbaycan jurnalistlərin hələ də həbsxanalarda

---

[139] Mayın 10-da Azərbaycan Milliyyətçi Demokrat Partiyasının fəalı, bloqer Eyvaz Yahyaoğlu Şirvan şəhər Məhkəməsinin qərarı ilə (İnizbati Xətalar Məcəlləsinin 535.1 maddəsi) 28 sutka inzibati həbsə məhkum edilib. Partiya nümayəndələri fəalın Şirvan TV Eyvaz Eloğlu adlı YouTube kanalında Şirvan rayonunda baş verən hüquq pozuntularını, dövlət əmlakının talan edilməsini, məmurların vətəndaşların şikayətlərinə qarşı biganəliyini ictimailəşdirdiyinə görə təqib edildiyini düşünür. Turan informasiya agentliyi: Azərbaycanda bloger Eyvaz Yəhyaoğlu 28 gün müddətinə həbs edilib, https://www.turan.az/ext/news/2022/5/free/Social/az/4753.htm

[140] 16 avqust 2022-ci ildə Siyasi fəal Maqsud Əliyev avqustun 16-da polisə tabe olmamaq ittihamı ilə 30 sutka inzibati həbs cəzasına məhkum edilib. Turan İnformasiya Agentliyinin məlumatına görə, M.Əliyev avqustun 12-də müxalifət partiyası AXCP-nin lideri Əli Kərimli ilə canlı debatda prezident İlham Əliyev və onun ümumi niyyətləri ilə bağlı sual ("Diqqət etmisinizsə, Əliyev son vaxtlar prezident Ərdoğanın tez-tez işlətdiyi "xarici güclər" kimi ifadələrdən istifadə edir. O, prezident Zelenski kimi daha dar paltarlar geyinərək üslubunu da dəyişib. Sizcə, Əliyev nə etməyə çalışır?") "Müdafiə Xətti" hüquq müdafiə təşkilatı fəalın həbsini pisləyib. Qurumun icraçı direktoru Rüfət Səfərov bildirib ki, M.Əliyevin debat zamanı verdiyi suala görə həbs edilməsinə şübhə yoxdur. "Siyasi fəal canlı onlayn müzakirə zamanı verilən suala görə həbs olundu", 21 avqust 2022 (political activist arrested over a question asked during live online discussion, August 21, 2022), https://www.az-netwatch.org/news/political-activist-arrested-over-a-question-asked-during-live-online-discussion/

[141] Sentyabrın 20-də Demokratiya 1918 Hərəkatının sədri Əhməd Məmmədliyə Səbail Rayon Polis İdarəsinin təqdimatı ilə Səbail Rayon Məhkəməsi İnzibati Xətalar Məcəlləsinin 535.1-ci maddəsi (polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) ilə 30 sutka inzibati həbs cəzası verib. Əhməd Məmmədliyə sülh çağırışlarına və İlham Əliyevi tənqidlərinə görə həbs olunduğunu və buna görə həbsinin əsassız olduğunu deyib. Demokratiya 1918 Hərəkatının sədri Əhməd Məmmədliyə 30 sutka inzibati həbs cəzası verilib, https://www.amerikaninsesi.org/a/6755178.html

[142] Sərhədsiz Repartyorlar Təşkilatı, Ümumdünya Mətbuat Azadlığı İndeksi, 2022. https://rsf.org/en/index

[143] Freedom House təşkilatının "Şəbəkədə azadlıq-2021" hesabatı https://freedomhouse.org/country/azerbaijan/freedom-net/2021

[144] Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi üzrə Avropa Şurasının Platforması, "Gərginlik və Münaqişə dövründə Mətbuat Azadlığının Müdafiəsi" hesabatı, https://rm.coe.int/platform-protection-of-journalists-annual-report-2022/1680a64fe1

saxlanıldığı ölkələr arasındadır. Bura həbsdə olan jurnalistlar Aslan Qurbanov (bloger), Elçin Məmməd və Polad Aslanov və Əvəz Zeynallı daxildir.

Azərbaycanda medianın və jurnalist fəaliyyətinin vəziyyətini izləyən Media Hüququ Qrupunun Azərbaycan: Medianın Hüquqi Durumu- 2022-ci il yarımillik hesabatında medianın başlıca problemlərindən biri kimi jurnalistləri qoruyan qanuni mexanizmlərin işlək olmaması və son aylarda böhtan və təhqirə görə, cinayət cəzaları müəyyən edən qanunlardan istifadənin yayğınlaşması göstərilir.[145] Hesabatda 2022-ci ilin ilk altı ayında jurnalistlərə, mediaya və media işçilərinə qarşı ümumilikdə 80-dən çox insidentin (fiziki – psixoloji təzyiq-təhdidlər, kiber müdaxilələr, defamasiya (böhtan və təhqir) ilə bağlı məhkəmə işləri) qeydə alındığı (səhifə, 6) vurğulanır və prokurorluq orqanlarının xəbərdarlıqları və ifadə azadlığından istifadə edənləri sorğu-sual etmələri qeyd edilir.[146]

3.1.4. "Media haqqında" qanun: Azərbaycanda onlayn media/jurnalist fəaliyyətinə yeni məhdudiyyətlər

"Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 12 yanvar 2021-ci il tarixli Prezident Fərmanı əsasında hazırlanmış "Media haqqında" qanun layihəsinin mətni 2021-ci il dekabrında parlamentin oxunuşuna təqdim edilənə qədər cəmiyyətə açıqlamayıb. Yeni Qanun qəbul olunmaq üzrə olarkən 2021-ci ilin dekabrına seçkili şəkildə bir sıra ekspertləri qanun layihəsinin qapalı müzakirələrinə dəvət edilib, lakin bu görüşlərdə iştirak edənlər öz fikirlərini səmərəli şəkildə təqdim etmək imkanlarının olmadığını bildiriblər.[147]

Vətəndaş cəmiyyəti nümayəndələri 15 dekabr 2021-ci ildə qanun layihəsinin Milli Məclisin gündəliyindən çıxarılması üçün çağırışlar ediblər. Çağırışı imzalayanlar "Media haqqında" Azərbaycan Respublikası Qanunu layihəsi təklifinin ictimai müzakirə aparılmadan tələsik Milli Məclisdə müzakirəyə çıxarılmasına etiraz edərək, layihəni gündəlikdən çıxarmağa, geniş ictimai müzakirələr ilə yenidən işlənməsi üçün çağırış ediblər.[148] Bütün bu çağırışlara baxmayaraq Milli Məclis qanun layihəsini 30 dekabr 2021-ci ildə qəbul edib.[149]

---

[145] Media Hüququ Qrupunun Azərbaycan: Medianın Hüquqi Durumu- 2022-ci il yarımillik hesabatı, https://www.turan.az/advertisements/smi/MHQ_media_huquqi_durum_2022_1.pdf

[146] Yenə həmin hesabata görə bu müddət ərzində böhtan və təhqirlə bağlı məhkəmə işlərinin əksəriyyəti xüsusi ittiham qaydasında verilmiş şikayətlərlə bağlıdır. Əksəriyyəti rəsmi şəxslər olan xüsusi ittihamçılar ən azı 11 işdə jurnalistlərin ictimai maraq dairəsində olan mövzulardakı məqalələrinə görə azadlıqdan məhrum edilməsini tələb ediblər.Müxalif Müsavat Partiyasına yaxın olan bastainfo.com resursunun həm interet saytı, həm də sosial media səhifələri bir neçə dəfə hücuma məruz qalıb. Müstəqil mövqeyi ilə seçilən «Toplum TV»-nin youtube səhifəsi də kiber hücumların hədəfində olub. Xaricdən yayılan "Turan" televiziya kanalı da haker hücumu ilə üzləşib. Kanalın rəhbəri Qənimət Zahidin bəyanatına görə, telekanalın serverləri dağıdılıb, materiallar silinib. TV-nin mütəxəssisləri serveri geri ala biliblər. 2022-ci ilin birinci yarısında Rusiyaya məxsus RİA-Novosti agentliyinin saytına giriş blok edilib. Bloklama RİA-Novosti-nin Azərbaycanla bağlı qanunla yayılması qadağan edilən materialları müntəzəm yayması ilə izah edilib.
https://www.turan.az/advertisements/smi/MHQ_media_huquqi_durum_2022_1.pdf

[147] "40-adək təklifdən yalnız ikisi nəzərə alınıb", Media məsələləri üzrə təhlilçi Ələsgər Məmmədli deyir ki, bu yeni Media qanunu ilə bağlı 40-dək təklif verilsə də, digər bütün təkliflər nəzərə alınmayıb. Cənab Məmmədli vurğulayır ki, nəzərə alınmayan təkliflər içərisində "ən ciddi məqam" jurnalistlərin vahid vəsiqə, imtiyaz, reyestrə salınma məsələsidir. https://www.bbc.com/azeri/azerbaijan-59522116

[148] Jurnalist, ekspert və hüquq müdafiəçilərindən ibarət vətəndaş cəmiyyətinin nümayəndələri "Media haqqında" Azərbaycan Respublikası Qanunu layihəsi təklifi ilə bağlı açıq müraciət ünvanlayıb, https://arqument.az/az/media-haqqinda-qanun-layihesi-ile-bali-aciq-muraciet/

[149] "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 08 fevral 2022, https://president.az/az/articles/view/55400

“Media haqqında” qanunun tələsik və həqiqi ictimai müzakirələr aparılmadan qəbul edilməsinə dair narahatlıqlar beynəlxalq insan hüquqları təşkilatları tərəfindən də ifadə edilib. Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı 25 yanvar 2022-ci ildə Azərbaycan Prezidentini öz səlahiyyətlərindən istifadə edərək “Media haqqında” qanuna əsaslı şəkildə yenidən baxılması üçün Milli Məclisə geri qaytarmağa dəvət edib.[150] Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarının bu çağırışına Azərbaycan Prezidentinin 12 yanvar 2021-ci il tarixli fərmanı ilə təsis edilmiş MEDİA-nın İnkişafı Agentliyi cavab verərək səsləndirilən narahatlıqları və tənqidləri qəbul etməyib.[151]

Milli Məclis tərəfindən qəbul edilən qanun 8 fevral 2022-ci ildə Azərbaycan Respublikasının prezidenti tərəfindən təsdiq edildiyi üçün həmin gündən etibarən hüquqi qüvvəyə minib.[152]

20 iyun 2022-ci ildə Avropa Şurasının Venesiya Komissiyası və İnsan Hüquqları və Qanunun aliliyi Baş Direktorluğu “Media haqqında” qanuna dair birgə rəy qəbul edərək belə nəticəyə gəlib ki, Azərbaycanda müstəqil jurnalistika və medianın onsuz da son dərəcə məhdud kontekstində “Media haqqında” qanun daha bir "çəkindirici effekt" verəcək. Komissiya əlavə edib ki, bir çox müddəalar ifadə azadlığı və media azadlığı ilə bağlı Avropa standartlarına uyğun gəlmir və mediaya “ictimai nəzarətçi” rolunu səmərəli şəkildə həyata keçirməyə imkan vermir. Komissiya Qanunu olduğu kimi icra edilməməsini tövsiyə edib.[153]

24 fevral 2022-ci ildə ATƏT-in Media Azadlığı Nümayəndəsi Azərbaycan Respublikasının “Media haqqında” qanununun geniş hüquqi təhlilini dərc edib və hakimiyyətə tövsiyələr təqdim edib. Tövsiyyələrlə bərabər yeni qanunda çoxsaylı problemlərin beynəlxalq və regional insan hüquqları standartları ilə uzlaşmadığı və problemli müddəaların qanundan çıxarılmalı olduğu vurğulanıb.[154] Qanunun 14-cü maddəsində nəzərdə tutulan məzmunla bağlı məhdudlaşdırıcı tənzimləmələr arasında bir çox müddəalar Venesiya Komissiyasının təsvir etdiyi kimi “çox qeyri-müəyyəndir, özbaşına təfsirə geniş imkan verir”.[155]

"Media haqqında" qanunun təhlili göstərir ki, qanun media mühiti və jurnalist fəaliyyəti üzərində hökumət nəzarətini daha da gücləndirərək media subyektlərinin və jurnalistlərin cəzalandırılmasını asanlaşdırır.[156] Yeni qanunda audiovizual media, çap mediası, onlayn media qurumları, xəbər agentlikləri və jurnalistlərə çoxsaylı tələblər və qaydalar qoyur. Lakin

---

[150]Müvəkkil məktubunda Milli Məclis tərəfindən 30 dekabr 2021-ci il tarixdə geniş və mənalı məsləhətləşmələr aparılmadan qəbul edilmiş yeni media haqqında qanunun ifadə azadlığı və media azadlığı ilə bağlı beynəlxalq insan hüquqları standartlarına uyğunluğundan ciddi narahatlığını bildirir. Qanun azad, müstəqil, senzurasız media və plüralizm prinsiplərinə zidd olaraq media sahəsini və jurnalist peşəsini həddindən artıq tənzimləyir. Azərbaycan: yeni media qanunu insan hüquqları ilə bağlı ciddi narahatlıq doğurur və dəyişdirilməlidir. 25 YANVAR 2022.https://www.coe.int/en/web/baku/-/azerbaijan-new-media-law-raises-serious-human-rights-concerns-and-should-be-changed

[151] MEDIA agentliyinin Avropa Şurası İnsan Hüquqları Komissarına cavab məktubu, https://rm.coe.int/reply-by-the-authorities-of-azerbaijan-to-the-letter-of-the-council-of/1680a54990

[152] Media Haqqında Qanun, https://azertag.az/xeber/Media_haqqinda__Azerbaycan_Respublikasinin_Qanunu-2005649

[153] CDL-AD(2022)009-e Azərbaycan - Venesiya Komissiyasının 131-ci Plenar Sessiyasında (Venesiya, 17-18 iyun) qəbul olunmuş Media haqqında Qanuna dair Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun (DGI) Venesiya Komissiyası ilə Birgə Rəyi 2022), https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2022)009-e

[154] “Media Haqqında" Azərbaycan Respublikasının Qanunu Təhlili” - ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin Ofisinin sifarişi ilə müstəqil media azadlığı eksperti Dr. Joan Barata Mir tərəfindən hazırlanıb, https://www.osce.org/files/f/documents/d/9/512935_0.pdf

[155] Azərbaycan - Venesiya Komissiyasının 131-ci Plenar Sessiyasında (Venesiya, 17-18 iyun) qəbul olunmuş Media haqqında Qanuna dair Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun (DGI) Venesiya Komissiyası ilə Birgə Rəyi 2022), para, 42-43, https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2022)009-e

[156] Yeni Media Qanunu: Azərbaycanda onlayn media/jurnalistikaya təsirlər. 24 mart 2022-ci il (New Media Law: implications for online media/journalism in Azerbaijan. March 24, 2022), https://www.az-netwatch.org/news/new-media-law-implications-for-online-media-journalism-in-azerbaijan/

araşdırmanın bu hissəsində yeni qanunun yalnız onlayn media qurumları üçün məhdudlaşdırıcı aspektləri müzakirə edilir.

Onlayn media subyektlərinin fəaliyyətinə icazə və nəzarət rejimi: Media Reyestri[157]

Media reyestrinə daxil edilmə, reyestrə daxil edilmə üçün tələblər və müraciət qaydaları "Media haqqında" qanun və "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 26 sentyabr 2022-ci il tarixli prezident fərmanı[158] ilə tənzimlənir. "Media haqqına" qanunun 78.3-cü maddəsi çap və onlayn media subyektlərindən Media Reyestri formalaşdığı tarixdən 6 (altı) ay müddətində media reyestrinə daxil edilmələri üçün müraciət etməyi tələb edir. "Media Reyestrinin aparılması Qaydaları" prezident fərmanı ilə 26 sentyabr 2022-ci ildə təsdiq edildikdən və informasiya Sisteminin proqram təminatı 14 oktyabr 2022-ci ildən etibarən reyestr fəaliyyətə başlayıb.[159]

"Media haqqında" qanunun 62.2-ci və 73.5-ci maddələrinə əsasən çap mediası və onlayn media subyektləri media məhsulunun istehsalından və materialın yayımlanmasından yeddi gün əvvəl Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyiyinə (MEDİA Agentliyi) Media Reyestrinə daxil edilmələri üçün rəsmi müraciət etməlidirlər. Media subyektlərinin dövlət reyestrinə daxil edilməyən çap və ya onlayn media subyektlərinin fəaliyyətinə məhkəmə qaydasında xitam verilir (Media haqqında qanun, maddə 65.4 və 65.4.4).

Avropa Şurasının Venesiyya Komissiyası[160] və ATƏT-in[161] Azərbaycanın "Media haqqında" qanuna dair rəy və təhlillərində onlayn media subyektlərinin Media reyestrinə daxil edilmə tələblərinin Qanunun 62-ci maddənin 1-ci bəndində medianın təsis edilməsində icazəni istisna edən qaydaya da açıq-aydın zidd olduğu vurgulanır. Hər iki rəylərdə qeyd olunur ki, reyestrə daxil edilmə tələblərinin onlayn media fəaliyyətini məhdudlaşdırmaq, dayandırmaq və ya ləğv etmək imkanları medianın fəaliyyətinə həddindən artıq müdaxilə təşkil edir.

22 sentyabr 2022-ci ildə qüvvəyə minmiş Medianın İnkişafı Agentliyinin nümayəndəsi bildirib ki, "Media haqqında" Qanuna əsasən, 6 ay müddətində qeydiyyat üçün Reyestrə müraciət etməyən KİV-lərin aqibətinə MEDİA-nın təqdimatı əsasında məhkəmədə baxılacaq.[162]

Dövlət reyestrinə məcburi daxil edilmə (qeydiyyat) isə media azadlıqlarına dair beynəlxalq standartlarla uyğunlaşmayan tələblərə söykənir. Media reyestrinə daxil edilmə

---

[157] Media Reyestri – "Media haqqında" Azərbaycan Respublikası Qanununun 73.1 və 73.2-ci maddələrinə əsasən Azərbaycan Respublikasında media subyektlərinə, o cümlədən onların redaksiyalarına, habelə jurnalistlərə dair məlumatların sistemləşdirilməsi məqsədilə yaradılmış və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA Agentliyi) tərəfindən idarə olunan elektron informasiya ehtiyatıdır.

[158] "Media Reyestrinin aparılması Qaydaları" prezident fərmanı ilə 26 sentyabr 2022-ci il, https://e-qanun.az/framework/52488

[159] Media Reyestri fəaliyyətə başladı, 14.10.2022, https://azvision.az/news/308967/--media-reyestri-fealiyyete-basladi--.html

[160] Venesiya Komissiyasının 131-ci Plenar Sessiyasında (Venesiya, 17-18 iyun) qəbul olunmuş Media haqqında Qanuna dair Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun (DGI) Venesiya Komissiyası ilə Birgə Rəyi 2022, paraqraf 41, https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2022)009-e

[161] "Media Haqqında" Azərbaycan Respublikasının Qanunu Təhlili" - ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin Ofisi, səhifə 21, https://www.osce.org/files/f/documents/d/9/512935_0.pdf

[162] Medianın İnkişafı Agentliyi Media Reyestrində qeydiyyatdan keçməmiş KİV-ləri məhkəməyə vermək niyyətini təsdiq edib, 22 sentyabr, 2022. https://www.turan.az/ext/news/2022/10/free/politics_news/az/10737.htm?fbclid=IwAR3fj6_IGZYkVWXEvFFqUoTL-rpKJ2xBSW-CGK-EesMI55tbyP2NzAqiKYk

(qeydiyyat) üçün olduqca ağır və media fəaliyyət mühitini əsassız məhdudlaşdıran tələblər mövcuddur.

Məcburi davamlı fəaliyyət

"Media haqqında" qanuna görə (maddə 60.5) onlayn media subyekti rəsmi mənbələrdən əldə olunan informasiya istisna olmaqla, gündəlik azı iyirmi kütləvi informasiya dərc etdikdə onun fəaliyyəti davamlı hesab olunur. Bu tələbə əməl edilmədikdə Qanunun 75.1.6-ci maddəsinə əsasən onlayn media subyekti reyestrdən çıxarılır və yenə Qanunun 65.4.5-ci maddəsinə əsasən ik ay ərzində davamlı fəaliyyətə dair tələblərə əməl edilmədikdə onlayn media subyektinin fəaliyyətinə məhkəmə qaydasında xitam verilir.

Onlayn medianın materiallarının sayı ilə bağlı dövlətin müdaxiləedici tənzimləməsinin hansı legitim məqsədə xidmət etməsi qeyri müəyyəndir. İstənilən media subyektinin yayımladığı material sayı bir çox faktorlardan (resurs, redaksiya siyasəti və.s) asılı olaraq dəyişə və fərqli ola bilər. Onlayn media subyektləri qarşısında belə məcburiedici tələb AİHK-nın 10-cu maddəsi ilə qorunan ifadə azadlığı hüquqların məhdudlaşdırılmasına haqq qazandırmaq üçün həmin maddəsinin 2-ci bəndində təsvir olunan qanuni məqsədlərdən birinə xidmət etməsi tələbi ilə də uyğunlaşmır. Onlayn və ya çap media qurumunun fəaliyyətinin dayandırıla biləcəyinə səbəb ola biləcək belə müdaxiləedici qaydanın media qurumunun fəaliyyəti ilə heç bir ağlabatan əlaqəsi yoxdur.

Mediada yayılan məzmuna dair məhdudiyyətlər

Məsələn, "Media haqqında" qanunun 14.1.6-ci maddəsi mediadan əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələrdən, jestlərdən istifadəyə yol verilməməsini tələb edir. Lakin "əxlaqsız leksik (söyüş) söz və ifadələr, jestlər" AİHM-si müvafiq president hüququ standartları ilə "qanunla nəzərdə tutulmuş" tələblərə ziddir.

14-cü maddə dövlət rəmzlərinə hörmətsizlik, terrorizmin təbliği, dini ekstremizm, zorakılıq və qəddarlıq, əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələr, jestlər, şərəf və ləyaqətin alçaldılması və işgüzar nüfuzunun ləkələnməsi, sağlamlığın və ətraf mühitin mühafizəsinə zidd olan hərəkətlər, parapsixologiya, xurafat və ya fanatizm daxil olmaqla, ümumilikdə media məzmunu ilə bağlı bir sıra çox problemli məhdudiyyət və qadağaları ehtiva edir. Beynəlxalq insan hüquqları qurumların rəylri bu məhdudiyyətləri əsassız və lüzumsuz kimi qiymətləndirir.[163]

Venesiya Komissiyasınında rəyində (paraqraf 22) qeyd edilir ki, həqiqətən də, müxtəlif beynəlxalq sənədlər dövlətləri nifrət nitqi ilə mübarizə aparmaq və ya uşaqları açıq-aşkar seksual və ya zorakı media məzmunundan qorumaq üçün müsbət tədbirlər görməyə çağırır.. Bununla belə, əvvəlki məhdudiyyətlər "məlumatların sərbəst axını və ictimai müzakirələr üçün ən ciddi təhdidlərdən birini təşkil etdiyinə görə, o, [Məhkəmə] onları ən ciddi yoxlamadan keçirəcək"(bax Gawęda Polşaya və Observer və Guardian Birləşmiş Krallıqa qarşı).

[163] "Media Haqqında" Azərbaycan Respublikasının Qanunu Təhlili" - ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin Ofisi, səhifə 4, https://www.osce.org/files/f/documents/d/9/512935_0.pdf

Komissiya qeyd edir ki, AİHK-nın 10-cu maddəsinə əsasən yoxlama, məzmuna qoyulan məhdudiyyətlərin ifadə azadlığı hüququna əsaslandırılmış müdaxilə kimi qiymətləndirilə biləcəyini öyrənmək üçün açıq-aydın üç test sınağından keçirir. Belə bir testi tətbiq etdikdə isə "Media haqqında" qanunun 14-cü maddəsində qeyd olunan məhdudiyyətlərin əksəriyyəti bu testə uyğun gəlmir, çünki onlar həddən artıq qeyri-müəyyəndir, özbaşına təfsir üçün həddən artıq geniş imkan verir və nəticədə onları qabaqcadan görmək mümkün deyildir (məsələn, müxtəlif hərəkətlərin "təbliğ edilməsi" və ya "əxlaqsız leksik məzmunun yayılması") (paraqraf 23).

İnternet məkandan istifadə edən şəxslər, həmçinin internetdə fəaliyyət göstərən media subyektləri və jurnalistlərin fəaliyyətini beynəlxalq standartlarla uyğunlaşmayan formada məhdudlaşdıan qanunlar və onun tətbiqi internetdə ifadə azadlığını və onlayn media azadlığını təhdid edir. Buna baxmayaraq, məhdudlaşdırıcı qanunvericilik media azadlığını məhdudlaşdırmağa kifayət etmədikdə, dövlət qurama ittihamlar əsasında tənqidçi fəalları, jurnalistləri inzibati və cinayət qanunvericiliyindən sui-istifadə etməklə cəzalandırma təcrübəsindən hələ də istifadə edirlər.

Azərbaycanın məhdudlaşdırıcı qanunvericilik və onun özbaşına tətbiqi ölkədə internetin insan hüquqları və azadıqlarının müdafiəsində və reallaşdırılmasında, o cümlədən müstəqil medianın internetdə artan təsirliliyinə dair rolunu azaltmaq və sıradan çıxarmaq məqsədi güdür.